www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 oktyabr 2015-ci il Bazar ertəsi № 231 (6259) Qiyməti 40 qəpik

**Xəbər**

## Bu həftə əqrəblər bir saat geri çəkiləcək

yazısı səh.14-də

# Cahangir Hacıyev, nəhayət, həbs edildi

# TƏHLÜKƏSİZLİK NAZİRİ NİYƏ CƏZALANDIRILDI - ŞOK VERSİYALAR

Xüsusi Dövlət Mühafizə İdarəsinin qüvvələri MTN-in bütün açar nöqtələrini Eldar Mahmudovla bağlı sərəncamdan bir gün əvvəl nəzarətə götürübmüş; əgər həbslərlə bağlı xəbərlər doğrudursa, prezidentin ölkədə olmadığı vaxt hansısa "baş tutmayan çevriliş" iddialarından da danışmaq mümkündür; nazir son vaxtlarda efirdə narahat və prezidentin son qərarını sanki onun üzündən oxumağa çalışırmış kimi görünürdü...



yazısı səh.5-də

**Gündəm**

## Ölkədə "sürünən bahalaşma"nın yeni dalğası başlayıb



Yeni qiymət artımının da süni olduğu bildirilir; satıcılar topdansatış işbazlarını günahlandırır; iqtisadçı ekspert isə...

yazısı səh.12-də

## Qarabağ ixtilafının həllini tormozlayan əsas amil

**Amerikalı politoloq Pol Qobl:** "Qorxuram münaqişə yenidən alovlansın..."

yazısı səh.11-də

## Müxalifət və sabiq MTN-çilər Eldar Mahmudovun istefaya göndərilməsindən danışdılar

yazısı səh.6-da

## Rusiya mediasından Azərbaycana İŞİD xəbərdarlığı: "Təhlükə artır..."

yazısı səh.9-da

*İstiqlalçı-deputat:*

## "Xalqı müstəqilliyin verdiyi imkanlardan tam yararlanmağa qoymadılar..."

yazısı səh.9-da

## Əməliyyat olunan həbsdəki müsavatçıya yaxınları ilə görüşə icazə verilmir

yazısı səh.4-də

## Tərtərdə şəhid olan borcalılı əsgərin valideynlərinin Azərbaycandan bir xahişi var

yazısı səh.10-da

## Mingəçevir köçkünləri üsyan püskürdü - "Bizə çatacaq mənzilləri satırlar..."

yazısı səh.12-də

## Təşviqat kampaniyasının 10-cu günü: müxalifət razıdırmı?

yazısı səh.4-də

## Bakının su təhlükəsizliyi ilə bağlı məhkəmə prosesi uzadılır

yazısı səh.14-də

## Hillari Klinton azərbaycanlı eks-deputatın qızına məktub yazıb

yazısı səh.2-də

# Gizli qaz savaşları - Bakı yenə ön cəbhədə...

Qaynar müharibələr kəmər müharibələrinə keçir; havaların sərtləşməsi ilə Rusiya bölgədə əsas təzyiq rıçaqını işə salıb; hədəfdə həm də "Qərb qapısı" Gürcüstandır; Abid Şərifovun qəfil və məxfi Tiflis səfəri hansı zərurətdən doğub?

yazısı səh.8-də



## Razi Nurullayev qurultay keçirdi və AXCP sədri oldu

yazısı səh.3-də



Saleh Məmmədov

## Maliyyə professorundan prezidentə inqilab kimi layihə təklifi

yazısı səh. 7 və 10-da



Elmira Axundova

## Deputatın oğlundan prezidentə şikayət olundu

yazısı səh.13-də

# İcra başçısı jurnalisti məhkəməyə verib



**Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov cenubnews.com saytının əməkdaşı Mirələm Həşimovu məhkəməyə verib. Musavat.com-un sözügedən sayta istinadən verdiyi xəbərə görə, məhkəmə 27 oktyabr 2015-ci il tarixində Masallı şəhərində keçiriləcək.**

Qaldırılan iddiada deyilir ki, Mirələm Həşimov saytda verdiyi xəbərlərlə guya icra başçısının şərəf, ləyaqət və işgüzar nüfuzunu alçaldıb və buna görə də Rafil Hüseynov ondan 5 min manat məbləğində maddi təzminat istəyir.

Məhkəməyə verilmiş 3 məqalədə dərc olunan xəbərlər isə bunlardır:

1. “Masallı park bulvarını sel apardı” sərlövhəli məqalədə (xəbərdə) redaksiya bildirir ki, nəinki Rafil Hüseynov, heç bir şəxs təhqir olunmayıb.

Xəbər linki: http://cenubnews.com/10828-masalli-park-bulvarini-sel-apardi-foto.html

2. “Masallıda ağacları kəsirlər” başlığı ilə yayımlanan məqalədə (xəbərdə) qeyd edilib ki, “Qarşı tərəfin movqeyini dərc etməyə hazırıq”. Əgər ağacların rəhbərlik tərəfindən kəsilməsi yalan idisə, onda redaksiyaya təkzib göndərilə bilərdi.

Xəbər linki: http://cenubnews.com/11530-masallida-agaclari-kesirler-foto.html

3. “Rafil Hüseynov: işıq pulunu ödəyə bilmirsənsə, get özünü öldür”. Redaksiya xatırladır ki, bu başlıqla yayımlanan məqalə (xəbər) Muxalifet.az ttp://muxalifet.az/ saytına istinad edilərək verilib və eyni xəbər bir çox başqa saytlarda da dərc olunub.

Xəbər linki:http://cenubnews.com/14411-rafil-huseynovshiq-pulunu-odeye-bilmirsense-get-ozunu-oldur.html

❑ **Musavat.com**



# “Ziya Məmmədovun qohumu deyiləm”

## Sahibkar İradə Əliyeva barəsində yazılanlara reaksiya verdi

**Ötən saylarımızın birində “Nəqliyyat Nazirliyində kim nə qədər ”paket" alır?" sərlövhəli yazı dərc etmişdik. Yazıda nəqliyyat naziri Ziya Məmmədovun ən yaxın çevrəsinə daxil olan şəxslərin nəqliyyat sistemində tutduqları vəzifələrdən uzaqlaşdırılaraq istintaqa cəlb olunması, hətta oğlu Anar Məmmədovun da istintaqçıların sorğu-sualından ən son anda yayınaraq ölkədən getməsi xəbəri var.**

Redaksiyamıza daxil olan məlumatda bildirilirdi ki, Z.Məmmədov 13 illik nazirliyi dövründə Nəqliyyat Nazirliyini podratçı şirkət kimi idarə edib, şəxsi maraqlarına tabe etdirib. Yaxın qohumlarını vəzifələrə təyin etməklə onlar vasitəsi ilə nazirlikdəki pul axınlarına nəzarət edib.

Məlumatda qeyd olunurdu ki, bu ilin aprelinə qədər Nəqliyyat Nazirliyinin xətti ilə həyata keçirilən sərnişin daşımalarından gəlirlərin böyük hissəsinə nazirin Ucardan olan qohumu İradə xanım vasitəsilə nəzarət olunub. Pul axını həmin qadın üzərindən baş tutub.

Redaksiyamızla əlaqə saxlayan İradə Əliyeva barəsində yazılanlara münasibət bildirib. Deyib ki, “Ayşən” MMC-nin direktorudur: “MMC sərnişin daşımaları ilə məşğuldur. 160 və 171 saylı marşrutların istismarçısıyam. Lisenziya əsasında fəaliyyət göstəririk, dövlətin vergisini ödəyirik. Ucarlıyam, Ziya Məmmədovla heç bir qohumluğum yoxdur. Heç vaxt da onunla münasibətim olmayıb. 2000-ci ildən bu işlə məşğulam. Bu sahə Nəqliyyat Nazirliyinə 2008-ci ildə verilib. Yəni mən orada 8 il işləyəndən sonra həmin sahə Nəqliyyat Nazirliyinə verilib”.

İ.Əliyeva barəsinə yazılanların həqiqət olmadığını, belə məlumatları bədxahlarının yaydığını söyləyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Pənah Hüseyn Sabirabadda seçiciləri ilə görüşdü

## “İlham Əliyevə yeganə müraciətim o olub ki...”

**63 saylı Sabirabad birinci seçki dairəsindən deputatlığa namizəd Pənah Hüseyn Sabirabad rayonunun Qruzma kəndində seçiciləri ilə görüş keçirib. Görüşün keçirildiyi stadionda izdiham yaşanıb.**





Deputatlığa namizəd çıxışında deyib: “Mən bu məktəbdə oxumuşam. Sonuncu dəfə də seçicilərimlə görüşə bu kənddən başlamışdım, indi də buradayıq. Rəqiblərimə də uğurlar arzu edirəm. Ümid edirəm ki, buradan həqiqətən səs toplayan şəxs deputat olacaq. Mən buradan hər kəsə səslənirəm: əgər mənə etimad göstərilərsə, deputat seçiləmsə, təkcə Sabirabad rayonunun, müxalifətin yox, hər kəsin deputatı olacağıma söz verirəm”.

Daha sonra o deyib: “Bəzən mənə deyirlər ki, ”Pənah bəy, sən 2005-ci və 2010-cu illərdə deputat olmuşdun. Həmin illərdə nə etmisən ki, indi yenə səs gözləyirsən?" Mən bu suala cavab verirəm. Deputat olduğum zamanlarda Milli Məclisə 11 ədəd qanun layihəsi hazırlayaraq təqdim etmişəm. 5 il ərzində mənə 5 mindən yuxarı müraciət göndərilib. Onların böyük hissəsinə cavab vermişik. Müxtəlif rayonlarda, kəndlərdə kommunal problemlərlə bağlı şikayətlər gəlib. Onlara da əlimdən gələn yardımı etmişəm. Biz istədiklərimizin, arzuladıqlarımızın 10 fazini belə həyata keçirə bilmədik, çünki mən hakimiyyətin deputatı deyildim, vəzifədə də deyildim. Mən deputat olduğum zamanlarda rayonun yollarına asfalt çəkilməsi üçün prezident İlham Əliyevə müraciət etmişəm. Və bu mənim İlham Əliyevə yeganə müraciətim olub. Hansı ki, bir müddət sonra bu kəndin yoluna asfalt çəkildi. Mən tam cəsarətimlə deyirəm ki, bir deputat 2005-ci və 2010-cu illərdə nə edə bilərdisə, mən ondan da artığına çalışmışam. Və yenə də söz verirəm ki, Sabirabad camaatı mənə etimad göstərərsə, bütün gücümlə sizin üçün çalışacağam".

Pənah Hüseyn özünün seçki platformasından da danışıb. Platformada milli birlik, demokratiya, sosial rifah kimi bəndlər yer alır.

Dünən deputatlığa namizəd daha 3 kənddə görüş keçirib

❑ **Məhəmməd TÜRKMƏN**

# Sabunçunun İcra Hakimiyyətindən “Camaatın yolunu satıb” iddiasına cavab gəldi

**Ötən saylarımızdan birində “Sabunçunun icra başçısından prezidentə şikayət - ”Camaatın yolunu satıb" sərlövhəli yazı dərc olunub. Redaksiyamıza müraciət edən Bakı sakini Emin Nəbiyevin sözləri, təqdim etdiyi foto və sənədlərin surəti əsasında hazırlanan yazıda vətəndaş iddia edib ki, 1 ildir ki, Nardarandakı bağ evinin qonşuluğundan keçən bağlararası yolun açılması üçün Sabunçu Rayon İcra Hakimiyyəti ilə mübarizə aparır.**




İcra Hakimiyyəti başçısı Adil Vəliyevi hədəf alan E.Nəbiyev onu qanunsuzluqda, zəbt olunmuş yolun Bakir Atakişi oğlu Kərimova satmaqda ittiham edib.

A.Vəliyevin köməkçisi Müslüm Mahmudov isə deyir ki, yazıda yer alan məlumatların dəqiqləşdrilməsinə ehtiyac var: “Yolun, ümumiyyətlə, ərazinin satılması iddiası kökündən yanlışdır. İcra başçısı yer satmır. Bu fikrin özü yanlışdır. Həmin məsələ 2 qonşu arasında mübahisədir. Sabunçu İcra Hakimiyyəti torpağa aid heç kimə heç bir sənəd verməyib”.

Müslüm Mahmudov məsələ ilə bağlı araşdırma aparılacağını da açılayıb: “Əgər orada zəbt məsələsi varsa, bu məsələyə baxılacaq və müsbət həllini tapacaq. Əlavə olaraq deyim ki, Sabunçu İcra Hakimiyyətinin başçısının Nardaran qəsəbəsi üzrə nümayəndəsi və Nardaran bələdiyyəsinin sədri də bizə verilən məlumata görə E.Nəbiyevin yaşadığı mənzilinin 012 594 60 35 nömrəli telefonuna məsələnin həlli bağlı zəng ediblər.

Lakin dəstəyi kimsə götürməyib".

M.Mahmudov Sabunçu İcra Hakimiyyəti başçısının belə problemlə rastlaşan vətəndaşları şəxsən qəbul etdiyini də bildirdi: “İcra başçısı özü vətəndaşları qəbul etməyə, dinləməyə, kömək etməyə həmişə hazırdır”.

❑ **E.MƏMMƏDƏLİYEV**

“Elm” tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;



# Hillari Klinton azərbaycanlı eks-deputatın qızına məktub yazıb

**Azərbaycanlı dizayner Mənzər Hacıyevanın hazırladığı kələğayı ABŞ-ın sabiq dövlət katibi Hillari Klintona hədiyyə edilib. Lent.az xəbər verir ki, bu barədə M.Hacıyeva “Moskva-Bakı” portalına müsahibəsində bildirib.**

Gənc dizayner müsahibəsində yaradıcılığı, gələcək layihələri, eləcə də onun yaratdığı məhsulların hansı məşhurların qarderobunu bəzədiyi haqqında danışıb. “Bizim kələğayıda ilk dəfə məşhur italiyalı aktrisa Ornella Muti olub. Yaylığı ona Bakıya səfəri zamanı hədiyyə ediblər və bizə bildirdilər ki, o, bu yaylığa heyran olub. Bundan başqa, biz Lara Fabian, eləcə də opera divası Anne Netrebkoya nar və öz adlarının baş hərfləri ilə yaylıq hədiyyə etmişik. Bizim yaylığı amerikalı siyasətçi, ABŞ-ın sabiq dövlət katibi Hillari Klintonun da üzərində görmək olar. Biz onun üçün eksklüziv məhsul hazırlamışıq və Azərbaycanın adından ona hədiyyə etmişik. Hillari Klinton bizə məktubunda hədiyyəyə görə təşəkkür edib və brendimizə uğurlar arzulayıb”, - deyə dizayner Mənzər Hacıyeva müsahibəsində bildirib.

Qeyd edək ki, M.Hacıyeva Milli Məclisin eks-deputatı, Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü Asəf Hacıyevin qızıdır.

# Eldar Həsənova mükafat verilib

**Serbiya Respublikasının prezidenti Tomislav Nikoliçin 10 oktyabr 2015-ci il tarixli sərəncamına əsasən Azərbaycanın bu ölkədəki səfiri, sabiq baş prokuror Eldar Həsənov “Serbiya Bayrağı” ordeni ilə təltif olunub. Bildirilir ki, bu təltif “prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətdə Balkan ölkələri, o cümlədən Serbiyaya göstərilən dost münasibətə verilən dəyərin təzahürü və göstəricisidir”.**

Eldar Həsənovun oktyabrın 10-da 60 yaşı tamam olub. Serbiya prezidentinin səfiri məhz indi təltif etməsi ona yubiley hədiyyəsidir.

Eldar Həsənov Azərbaycanın təkcə Serbiyada yox, həm də Monteneqro, Bosniya və Herseqovinada da səfiridir. Adı çəkilən ölkələrdə də o, bir sıra ali mükafatlarla təltif edilib. O, 2000-ci ildən səfir səlahiyyətlərini daşıyır.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015



# Razi Nurullayev qurultay keçirdi və AXCP sədri oldu

## "Biz demokratik seçki keçirməklə yeni tarix yazdıq"

**Oktyabrın 18-də AXCP Etimad Qurultayı Təşkilat Komitəsi toplanaraq qurultay keçirib. Qurultayda AXCP-nin Əli Kərimlidən imtina etmiş, həmçinin partiyadan çıxarılan hissəsi iştirak edib. Qurultay Əmircan qəsəbəsində, Səttar Bəhlulzadə adına mədəniyyət evində keçirilib. AXCP Etimad Qurultayı Təşkilat Komitəsinin rəhbəri Razi Nurullayev tədbiri açıq elan edib. Əvvəlcə dövlət himni səsləndirilib. Sonra milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin, ADR-in banisi Məhəmməd Əmin Rəsulzadənin, o cümlədən şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.**

Daha sonra R.Nurullayev bildirib ki, qurultayda 212 nümayəndə iştirak edir: "Bununla da qurultayımız səlahiyyətlidir".

EQTK sədrinin təklifi ilə 3 nəfərdən ibarət müvəqqəti say və 3 nəfərdən ibarət mandat komissiyası seçilib. Redaksiya heyətinə keçirilən seçkilərdə 2 nəfərə etimad göstərilib. Sədarətə keçirilən səsvermədə 3 nəfərə səs verilib - Razi Nurullayev, Rafiq Daşdəmirli və Rəfail Becanov seçilib.

Daha sonra AXCP EQ TK-nin sədri Razi Nurullayev çıxışında təşkilatın yaranma zərurətindən danışıb: "1988-ci ildə başlayan milli azadlıq hərəkatının qarşısına qoyduğu məqsəd və vəzifələr bu günə qədər həyata keçirilməyib. Xalq, millət qarşısında götürdüyünüz vəzifələrin heç biri yerinə yetirilməyib, həyata keçirilməyib. Bu günə qədər heç zaman biz müxalifət olaraq xalqa verdiyimiz sözü tuta bilməmişik. Əbülfəz Elçibəyin yaratdığı Xalq Cəbhəsi vaxt var idi hər bir ailəni əhatə edirdi. Amma bu gün belə deyil. Bu gün Azərbaycanda humanist insanlara, xalqı düşünənlərə və xalqla bərabər hərəkət edənlərə ehtiyac var. Və zaman-zaman Azərbaycan Xalq Cəbhəsi partiyaya çevrildi və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilmədi. AXC xalqdan aralı düşdü. Bunun birbaşa günahkarı kimi mən başda Əli Kərimli olmaqla digər müxalifət liderlərini görürəm. Əgər bir lider söz verirsə, nəticə göstərməklə bağlı öhdəlik götürürsə, nəticə göstərməlidir. Əgər nəticə yoxdursa, kənara çəkilməlidir. Bu gün Azərbaycan hökumətində 20 ildən çox nazir postlarını tutan insanlar var, icra başçısı işləyən insanlar var. Bu, bizə xoş deyil. Xalqın yarıdan çoxu işsiz vəziyyətdədir, cibində bir manatı yoxdur. Budur qurulan siyasət. Amma bu siyasətə, zülmə qarşı biz necə dayandıq? Xalqı arxasında aparan lider olmadı. Amma yenə liderlik kürsüsündə oturmağı tərcih etdilər. Xalq da bu gün başsız qalib. Xalq lider axtarışındadır. Biz istədik ki, Elçibəyin yaratdığı AXC-ni bərpa edək. Əbülfəz Elçibəyin, Məmməd Əmin Rəsulzadənin ideyaları formasında yenidən formalaşdıraq. Xalqla bir olaq, xalqdan həyatımızı fərqləndirməyək. Biz bunu istəyirik, bunun üçün yarandıq".





**"Azərbaycan gənclərini həbsxanaya göndərən və bunun nəticəsində xalqı təqiblərə məruz qoyan Əli Kərimliyə deyirəm ki..."**

Onun sözlərinə görə, onu hakimiyyətyönlü olmaqda günahlandıranlar yanılırlar: "Hazırkı iqtidara, Azərbaycan prezidenti İlham Əliyevə qarşı müxalifətdəyik. Amma biz söyüş söymürük, qanun çərçivəsində mübarizə aparacağıq. Biz əsl müxalifətik. Real müxalifətik və qanun çərçivəsində mübarizə aparacağıq. Siyasi məhbusların şəklini burada görmürəm. 30-dan çox mətbəə ilə danışdıq, bir neçəsi söz verdi siyasi məhbusların fotolarını çap etməyə. Amma sonra heç bir mətbəə bunu üzərinə götürmədi. Qorxdular, YAP-dan qorxdular, polis zülmündən qorxdular, bu, düzgün siyasət deyil. YAP-a, onun rəhbərliyinə, iqtidara səslənirəm - mənəvi təhdidlə demokratik dövlət qurmaq olmaz. Cibə narkotik atıb, həbs edib, övladları universitetdən qovmaqla onları düz yoldan çəkindirməməlisiz. Azərbaycana normal mədəni siyasət gətirmək iqtidarında olan müxalifət bizik. Hökumətə, YAP-a təkliflərimizi burdan bildiririk. Normal səviyyəli müxalifət yoxdursa, normal hökumət qurmaq mümkün deyil. Əgər müxalifət pisdirsə, o zaman YAP və hökumət bizdən də pisdir. Sistem belə qurulmalıdır. Hökumətlə danışıqlara gedə bilərik, təklif verək ki, cəmiyyətə normal olan nədir. Əgər razılaşmayacaqsa, o zaman bunu da xalqa çatdıracağıq. Deyəcəyik ki, özləri tək idarə etmək istəyirlər, bu isə yolverilməzdir. Xalqımıza böyük sərvətlər verilib, amma elə rayon var ki, qaz yoxdur, meyvə ağacını kəsib qızınırlar... Əli Kərimlinin xalq vəd etdiyi qəhrəmanlıq formulu bilirsinizmi nədir? Hökuməti, bizi, onu tənqid edənləri təhqir etmək. Biz onu təhqir etmədik, onun siyasətini tənqid etdik, onlar isə bizə söyüş söydülər, hətta analarımıza belə söyüş söyməkdən çəkinmədilər. Onların bir çoxu Əli Kərimli ilə çiyin-çiyinə dayanan insanlardır. Bu gün də bu siyasət davam edir. Belə sistem yaradılıb ki, hər cümlənin başında İlham Əliyevin, Ramiz Mehdiyevin, YAP-ın adını çəkmək qəhrəmanlıq sayılır. Amma bu, qəhrəmanlıq deyil. Bu insanlarda ikrah hissi yaradır. Bu gün deyim, gəlib bizi burda döysünlər, sizi həbsxanaya aparsınlar. Mən qəhrəman olacağam. Hər yerə şəkillərim vurulacaq. Nə baş verəcək? Mənə investisiya qoymaq istəyənlər artacaq, mən normal yaşayacağam, sizlər isə problemlərlə üzləşəcəksiniz. Mən belə yalançı qəhrəmanlıq istəmirəm. Zorla insanları polislə qarşıdurmaya göndərir. Gənclər ömrünün 7-8 ilini həbsdə çürüdür, valideynlə həbsxana qarşısında boynu bükük dayanırlar. Budurmu siyasət? Biz güclənərək hökumətə təkliflərimizi qəbul etdirə bilərik. Xalq 100 minlərlə ayağa qalxanda İlham Əliyevə və komandasına təkliflərimizi qəbul etdirə bilərik. Amma bu zalı dağıtmaq üçün bir polis alayı kifayət edər. Biz buna getməyəcəyik. Xalqın firavanlığı bizim üçün əsasdır".

Digər tezislərini də qısa şəkildə çatdıran Razi Nurullayev siyasətə yeni simaların gəlməsinin vacibliyini vurğulayıb: "O insanlar bu partiyadan çıxacaq. Bunun şahidi olacaqsınız. Bizim siyasətimiz nəticəsi, səviyyəsi, kübarlığı ilə fərqlənəcək".

Həmçinin, siyasi məhbuslar məsələsinə münasibət bildirən Razi Nurullayev qeyd edib ki, onların günahı hakimiyyəti tənqid etmək olub: "Bizim dostlarımız olan Seymur Həzi, Akif Yusifli, İntiqam Əliyev, Leyla Yunus, Arif Yunus, Xədicə İsmayıl, onlarla digər insanlar həbsxanadadır. Onlara azadlıq arzulayırıq, hökumət özündə güc tapıb şər və böhranla həbs etdirdiyi bu insanları azad etməldir. Valideynlərin göz yaşına yol verməK olmaq. Sabahdan daha çox zamanımızı buna sərf edəcəyik".

Həmçinin, o, Dağlıq Qarabağla bağlı da mövqeyini qurultay iştirakçılarına çatdırıb: "Biz heç bir zaman Qarabağ üzərindən çirkin oyuna gedə bilmərik. Hər qarşı torpağımız əzizdir. Heç bir zaman, heç bir şərt altında Qarabağla bağlı bir kompromisə gedə bilmərik. Ərazi bütövlüyümüz ata-anamızdan, canımızdan, övladımızdan da müqəddəsdir. Avropaya inteqrasiyaya gəldikdə isə, deyim ki, insanlar yaxşı həyat üçün Avropaya üz tutur. Səfirlik qarşısında növbədə dayananlar var. Avropada şəffaflıq, iş, gözəl təhsil, demokratiya, insan şəxsiyyətinə hörmət, qanun və qanunçuluq var. Ona görə də Azərbaycan Avropanın bir hissəsi olmalıdır. Azərbaycanda saf, sivil, kübar bir dövlət yaratmalıyıq".

O, eyni zamanda, iqtisadi durumla bağlı da fikirlərini bildirib: "Hər bir Azərbaycan vətəndaşının indiki sosial vəziyyəti ağırdır, ipoteka ala bilmir, hər kəs bankın girovuna çevrilib. İnsanlara daha çox sosial şərtlərlə kreditlər verilməli idi ki, insanlar girova çevrilməsin. Halbuki bunların heç biri olmadı və xalqın vəziyyəti günbəgün ağırlaşdı".

AXCP EQTK-nın üzvü Rafael Becanov isə çıxışında bildirib ki, Əli Kərimli AXCP-nin legitim sədri deyil: "2001-ci ildə Əli Kərimli etiraf etdi ki, mən "Yurd"am, artıq AXCP-ni idarə etmirdi. İndi bu məsələ yenə davam edir".

Əbülfəz Elçibəyin dövlət maraqlarını hər zaman öz şəxsi maraqlarından üstün tutduğunu xatırladan Rafail Becanov "Əbülfəz Elçibəy şəxsi maraqlarını dövlət maraqlarına qurban verdi və Azərbaycanın indi qüdrətli dövlətə çevrilməsində onun əməyi böyük oldu",- deyə vurğulayıb.

Daha sonra AXCP-nin sədrliyinə üç nəfərin namizədliyi verilib. Bunlar Razi Nurullayev, Mehman Muradlı və Səbuhi Əliyev olub. Həmçinin, müəyyən olunub ki, bundan sonra AXCP sədri ancaq 2 dəfə seçiləcək. Partiyanın Nizamnaməsinə bunu təmin edəcək dəyişiklik edilib. 208 nəfər dəyişikliyin lehinə olub. 2 nəfər dəyişikliyin əleyhinə səs verib. Səs saxlayan və bitərəf olanların da sayı 2 nəfər olub. Qərarı şərh edən Razi Nurullayev bildirib ki, bu, tarixi qərardır: "Sədrin seçilmə müddətinin iki dəfəyə endirilməsi olduqca vacibdir. Heç kəs kresloda ömürlük olmamalıdır".

Gizli keçirilən səsvermə nəticəsində isə R.Nurullayev 165 səslə AXCP-nin sədri seçilib. Seçiləndən sonra sədr kimi ilk çıxışını edən R.Nurulayev hamını təbrik edib. O, həmçinin partiyanın müxalifət kimi fəaliyyətində çətinliklər olacağını istisna etməyib: "Biz parlament seçkisində iştirak etmədik, çünki saxtakarlıqda iştirak etmək istəmədik. Çünki saxta seçkidə iştirak edərək xalqın vəkili olmaq mümkün deyil. Təyinatla olan mandata "yox" deyirik. Bizə sizin seçdiyiniz vəkil daha dəyərlidir. Sizin seçiminiz nəticəsində sizin hər birinizin vəkiliyik. Elçibəyin istədiyi AXCP budur. Biz bunu qurduq və bərpa etdik. Bunun sonunda AXCP-ni zəbt edən, nəticəsiz siyasətə imza atan, Azərbaycan gənclərini həbsxanaya göndərən və bunun nəticəsində xalqı təqiblərə məruz qoyan Əli Kərimliyə deyirəm: Əsl AXCP burdadır. Azərbaycana xidmətin bu andan etibarən istefa verməyin ola bilər. Qoy sənin yanındakılar da bizim yanımızda, Elçibəyin qurduğu partiyada yer alsınlar. Biz bu gün demokratik seçki keçirməklə yeni tarix yazdıq. Hər biriniz, zaman gələcək bu şərəfli tarixi yazdığınıza görə fəxr, qürur duyacaqsız. Bu andan etibarən bununla fəxr etməyinizi istəyirəm".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015

# Təşviqat kampaniyasının 10-cu günü: müxalifət razıdırmı?

**Parlament seçkiləri ilə bağlı hazırda davam edən təbliğat-təşviqat kampaniyasının 10 günü arxada qaldı. Proses getdikcə sona yaxınlaşır. Millət vəkilliyinə iddiaçılar qısa müddətdən yararlanmaq üçün sürətlə təşviqat prosesinə qoşulublar. Seçkilərdə aktiv iştirak edən qurumların hazırlıqları ilə maraqlandıq.**



**Gülağa Aslanlı:** "Ciddi qanun pozuntuları var"



**Əhəd Məmmədli:** "Hakimiyyət 4 dəqiqə şərait yaratsaydı..."



**Bəybala Əbilov:** "Hazırlıqlar istədiyimiz səviyyədə deyil"



**Ənvər Ağazadə:** "Hər şey yaxşıdır"

Müsavat Partiyasının seçki qərargahının rəhbəri Gülağa Aslanlı namizədlərin fərdi şəkildə təbliğatlarını apardıqlarını qeyd etdi: "Oktyabrın 17-də 71 saylı Masallı seçki dairəsindən namizədimiz Xasay Feyzulla uğurlu görüş keçirdi. Paylaşılan şəkillərdən də görünür ki, 300 nəfərlik zal doludur. İkram İsrafil seçki kampaniyasını Şəkidə uğurla aparır. Hər kəs fərdi surətdə seçicilərlə görüşlərini təşkil edir. Kifayət qədər maneələr var. Müsavat Partiyasının namizədləri olan bütün dairələrdə ciddi qanun pozuntuları mövcuddur. Maneələr əsasən yerlərin ayrılması ilə bağlıdır. 10 saylı Binəqədi seçki dairəsində cəmi iki yer ayrılıb. Biri qapalı, biri isə açıq yerdir. Belə çıxır ki, 9-cu mikrorayon sakinləri namizədlə görüşmək üçün ya Binəqədiyə, ya da Biləcəriyə getməlidirlər. Təbliğat kampaniyasını plana uyğun şəkildə aparırıq".

G.Aslanlı oktyabrın 25-də keçirəcəkləri seçki mitinqindən də danışdı: "Mitinq qərarımız qüvvədə qalır. Divanda bu məsələ bir daha müzakirə olunacaq. Mitinqlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişik. Qurum yenə də mitinq keçirməyimizlə bağlı müraciətimizə cavab verməyib. Əvvəllər olduğu kimi, yenə də gözləyirlər ki, mitinq gününə bir və ya iki gün qalmış cavab versinlər. Bu həm "Sərbəst toplaşmaq haqqında" qanuna, həm də Seçki Məcəlləsinə ziddir. Çünki bu mitinq seçicilərlə görüş xarakteri daşıyır".

"AĞ Blok"un seçki qərargahının rəhbəri Əhəd Məmmədli namizədlərinin təbliğatını sürətlə apardıqlarını qeyd etdi: "Artıq bütün yerlərdə namizədlərimizin plakatları yapışdırılıb. Görüşlər keçirilir. Sosial şəbəkələrə də geniş yer ayırırıq. Tam fərqli şəkildə seçki kampaniyası aparırıq. Belə də davam edəcəyik. Bir-birimizə dəstək şəklində işlərimizi davam etdiririk. Qeydə alınmayan 4 namizədimiz digər 4 namizədə hərtərəfli dəstək verir. Komanda olaraq, proseslərdə aktivik. Ümumi prosesdən narazılığımız yoxdur. Planlı şəkildə işlərimiz sürətlə gedir. Seçki mühitindən narazıyıq. Pulsuz efir vaxtının verilməməsi ciddi narazılıq doğurdu. Seçkinin demokratikliyinə mənfidir. Hakimiyyət 4 dəqiqə şərait yaratsaydı, təbliğat üçün böyük irəliləyiş olardı. Bu, hakimiyyətin seçki imicinə zərbədir. İqtidar özü üçün böyük təhlükə gördüyündən bu yola getdi. Çalışırlar ki, seçki abı-havası olmasın. İstədiklərini bu şəkildə həyata keçirməyə çalışırlar. "AĞ blok" olaraq, bütün bunların əksini etməyə çalışırıq. Sona qədər bu istiqamətdə çalışacağıq. Tural Abbaslı başda olmaqla, bütün namizədlərimiz maksimum fəaliyyətlərini sona qədər aparacaqlar. Onu da qeyd edim ki, namizəd olduğumuz dairələrdə ya favorit, ya da iki əsas iddiaçıdan biriyik. Hakimiyyətə əsas alternativlər bizik. Azad seçki olsa, qalib gələcəyimizə inanırıq".

"Azadlıq 2015" seçki blokunun seçki qərargahının rəhbəri Bəybala Əbilov seçki prosesindən şikayətləndi: "Hazırlıqlar gedir, amma istədiyimiz səviyyədə deyil. Qanunlar icra olunmur, yerlərdə manelər var. Cəmiyyətə kifayət qədər informasiya verilmir. Görüş yerləri tam uğursuz yerlərə salınır. Seçicilərin olmadığı yerlərə. Blokumuzun 11 namizədinin işi məhkəmədədir. Bunun özü ciddi qanun pozuntusudur. Məhkəmələr göz yumur. Azərbaycanda seçki mühiti, demokratiya yoxdur. Sadəcə, nağıl danışırlar. Bütün bunlara baxmayaraq, mübarizəmiz davam edir. Sona qədər də seçkidə baş verənləri cəmiyyətə çatdırmağa çalışacağıq".

Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə işlərin qaydasında getdiyini dedi: "Hər şey yaxşıdır. Xüsusilə, sədrimiz İqbal Ağazadənin dairəsində işlər uğurla gedir. Hər gün görüşlər keçiririk. Hakimiyyət tərəfindən görüş üçün ayrılmış yerdə möhtəşəm görüş keçirəcəyik. Bu günə qədər apardığımız kampaniyadan razıyıq. İqbal bəy bu günə qədər dairədə şəriksiz liderdir. Apardığımız müşahidələr və sorğular bunu deməyə əsas verir. Digər dairələrdə də işlərimiz sürətlə gedir".

❑ Cavanşir ABBASLI



Sirac Kərimli

## Əməliyyat olunan həbsdəki müsavatçıya yaxınları ilə görüşə icazə verilmir

Vəkil Penitensiar Xidmətə müraciət ünvanlayıb; Raqif Kərimli: "Məcburuq ki..."

**Həbsdəki müsavatçı gənc Sirac Kərimlinin əməliyyat olunması barədə xəbər vermişdik. Vicdan məhbusunun səhhəti günü-gündən yaxşılaşır. S.Kərimliyə yaxınları ilə görüşə icazə verilmir.**

Bu barədə müsavat.com-a onun atası Raqif Kərimli məlumat verdi: "Oktyabrın 17-də zəng etmişdi. Səhhəti yaxşılaşmağa doğru gedir. Təmiz hava alması üçün gəzdiriblər. Anası və həyat yoldaşı yanına getmişdilər. Lakin icazə verməyiblər. Deyiblər ki, görüş vaxtı ayın 25-dədir. Amma lazım olan şeyləri götürüblər. Məcburuq ki, görüş vaxtında gedək".

Müsavatçı gəncin vəkili Nemət Kərimli də görüş cəhdlərinin səmərə vermədiyini qeyd etdi: "Mənim də görüş cəhdlərim alınmadı. Bununla bağlı Penitensiar Xidmətə müraciət ünvanlamışıq. Nəticəsini gözləyirik".

Xatırladaq ki, Sirac Kərimli ötən il iyulun 17-də həbs olunub. Müsavatçı gəncin həbsindən bir həftə sonra qardaşı Fərəc Kərimli həbs olunub. Hər iki qardaşı Cinayət Məcəlləsinin 234-cü maddəsi ilə ittiham olunublar. F.Kərimli 6 il yarım, S.Kərimli 6 il müddətinə azadlıqdan məhrum ediliblər.

❑ Cavanşir ABBASLI

# Demokratik ölkələrdə pulsuz və ya pullu efir anlayışı varmı?



Akif Qurbanov

**MSK üzvü Akif Qurbanov:** "Hakimiyyət təmsilçiləri Qərb ölkələrinin nümunələrinə sığınırlar..."

**Noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı pulsuz efir vaxtının ayrılmaması seçkiöncəsi əsas narazılıq doğuran məsələlərdən oldu. Əvvəlki seçkilərin hər birində namizədlər bu imkandan istifadə etmişdilər.**

Doğrudur, Seçki Məcəlləsinə görə, qeydə alınmış iddiaçılarının sayı 60-dan yuxarı olan siyasi qurum pulsuz efir vaxtı əldə edir. Bu seçkilərdə isə yalnız hakim partiya olan YAP bu şansı qazandı. Lakin günlər öncədən iqtidar partiyası pulsuz efir vaxtından imtina etdiyini açıqlamışdı. YAP "balansı qorumaq" məqsədilə belə bir addım atdığını cəmiyyətə çatdırmışdı. Çünki seçki kampaniyasının ilk mərhələsindədəcə heç bir müxalif qurumun 60-dan çox iddiaçısının qeydə alınmayacağı çoxlarına məlum idi. Seçkilərdə iştirak edən ölkə müxalifətinin pulsuz efir vaxtı ilə bağlı müraciətləri də səmərə vermədi.

Maraqlıdır, demokratik ölkələrdəki seçkilərdə pulsuz efir vaxtı anlayışı varmı?

Mərkəzi Seçki Komissiyasının üzvü Akif Qurbanov demokratik ölkələrdə dövlət televiziyası anlayışının olmadığını söylədi: "Demokratik ölkələrdə büdcədən dövlət televiziyasının, medianın maliyyələşməsi anlayışı yoxdur. Ümumiyyətlə, belə ölkələrdə dövlət televiziyası anlayışı da yoxdur. Yalnız bir sıra ölkələrdə İctimai Televiziya var. Türkiyə tipli ölkələri misal çəkə bilərik. Aparıcı Qərb dövlətlərində isə, telekanallar demək olar ki özəldir. Həmin ölkələrin mətbuata yanaşması bundan ibarətdir ki, media müstəqil olmalı, fəaliyyətlərinin əsasını kommersiya və ictimai maraqlar təşkil etməlidir. Həmin dövlətlərdə bu anlayış olmadığından qanunvericilikdə televiziyalar baxımından pulsuz və ya pullu efir anlayışı yoxdur. Bu, məcburiyyət də yaratmır".

MSK üzvü xarici ölkələrdə telekanalların bütün alternativ tərəflərə şərait yaratdığını da qeyd etdi: "Türkiyədəki ATV kanalının Ərdoğana məxsus olduğu sirr deyil. Lakin o kanalda belə, Ərdoğanın əsas rəqibləri olan MHP və CHP-yə də yer verilir. Yəni xarici ölkələrdə alternativ olan bütün qurumlara, şəxslərə şəraitin yaradılması vacib məsələlərdən biridir. Əgər belə olmasa, o televiziyaya baxan olmaz, reytinqi aşağı düşər. Qərb ölkələrində bunlar tənzimlənir. Ona görə də, məhz onlarda pulsuz yaxud pullu efir vaxtı anlayışı yoxdur".

A.Qurbanov seçkiqabağı təbliğat-təşviqat mərhələsinin az və ya çox olması məsələsinə də toxundu: "Bizim üçün əsas müzakirə olaunn məsələlərdən biri də təşviqat dönəminin az və ya çox olması ilə bağlıdır. Bəzən hakimiyyət təmsilçiləri Qərb ölkələrinin nümunələrinə sığınırlar. Deyirlər ki, Fransada təşviqat dönəmi 21 gündür. ABŞ-da da belə nümunələrə rast gəlirik. Amma düşünmək lazımdır ki, bu tipli ölkələrdə namizədlər arasında sırf debatın təşkili ilə bağlı bu qədər müddət vaxt var. Bu ölkələrdə iddiaçıların efirə çıxmaq problemləri yoxdur. Efirdə istənilən vaxt debat var. Hətta seçki olub-olmamasından asılı olmayaraq, müxalif şəxslər daim ekranlarda olurlar. Müddət anlayışı yoxdur. Bu anlayış yalnız debatlar zamanı olur. Orada namizədlər efirə çıxır, konkret suallar verilir, onlar da cavablandırırlar. Əsasən dövlətin daxili və xarici siyasəti ilə bağlı suallar verilir. Cəmiyyət də bundan sonra seçimini edir. Azərbaycanda təəssüflər olsun ki, bu anlayış tamamilə məhv edilib. Beynəlxalq təşkilatlar da bu addımı sərt tənqid edirlər, namizədlərin bərabər imkanlarının məhdudlaşdırıldığını deyirlər, iddiaçıların platformalarını cəmiyyətə çatdırmalarına maneçilik törədildiyini açıq şəkildə hakimiyyətin diqqətinə çatdırırlar. Bizdə İctimai Televiziya üzərinə düşən işi yerinə yetirsəydi, digər kanallar da qanunun tələblərinə əməl etsəydi, Azərbaycan beynəlxalq aləm qarşısında götürdüyü öhdəlikləri nəzərə alsaydılar, bu qədər narazılıqlar olmazdı. Təşviqat dönəminin qısa olması, efir vaxtının olmaması siyasi partiyaların gücünü də əlindən alır. Nə qədər çox vaxt olanda daha çox səmərə verir. Normal şərait olsa, əminəm ki, siyasi qurumlar tənqidlər səsləndirməzdilər. Sadəcə, siyasi partiyalar bu dönəmi fürsət kimi düşündüklərindən, bu qədər sərt reaksiya verirlər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015

# Cahangir Hacıyev, nəhayət, həbs edildi

**Dövlət başçısı İlham Əliyevin milli təhlükəsizlik naziri Eldar Mahmudovu oktyabrın 17-də axşam işdən çıxarması barədə sərəncamının elan edilməsi ilə ölkənin gündəmi dəyişib. Prezident sərəncamının elan edilməsindən dərhal sonra E.Mahmudov və Milli Təhlükəsizlik Nazirliyinin (MTN) rəhbərliyi haqda bir-birinə zidd xəbərlər yayılıb. Çoxsaylı versiyalar, şayiə və mülahizələrdə sabiq nazirin saxlanıldığı, onun MTN-dəki komandasına qarşı irimiqyaslı həbslərin başlanıldığı, nazirliyin Monitorinq Xidmətinin rəisi general Teymur Quliyevin və Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevin, eləcə də daha bir neçə yüksək rütbəli əməkdaşının həbs edildiyi bildirilib.**



# Təhlükəsizlik naziri niyə cəzalandırıldı - şok versiyalar

Xüsusi Dövlət Mühafizə İdarəsinin qüvvələri MTN-in bütün açar nöqtələrini Eldar Mahmudovla bağlı sərəncamdan bir gün əvvəl nəzarətə götürübmüş; əgər həbslərlə bağlı xəbərlər doğrudursa, prezidentin ölkədə olmadığı vaxt hansısa "baş tutmayan çevriliş" iddialarından da danışmaq mümkündür; nazir son vaxtlarda efirdə narahat və prezidentin son qərarını sanki onun üzündən oxumağa çalışırmış kimi görünürdü...

Həbslərlə bağlı İlkin informasiyalar da şok effekti doğurub: "Həbs edilənlər MTN-in imkan və səlahiyyətlərindən yararlanaraq, dövlət başçısının, onun ailə üzvlərinin, eləcə də hakimiyyətdəki yüksək vəzifəli şəxslərin özlərinin və ailə üzvlərinin telefon danışıqlarını dinləyirmişlər!" Sonra isə daha ilginc anons: "Həbslər davam edəcək və onun daha bir neçə generalı da əhatə edəcəyi gözlənilir..." Rəsmi qurumlar isə 48 saatdır ki, susur...

MTN-lə bağlı müəmmanın şənbə və bazar gününə düşməsi təsadüfə oxşamır. Çünki ölkənin gündəmini dəyişəcək bu kimi hadisələr, adətən, istirahət günlərində və ya bayramlarda baş verir. 18 oktyabr rəsmi bayram günü olmasa da, istirahət günüdür və rəsmi qurumlardan heç bir izahat, bilgi və açıqlama almaq mümkün deyil.

**Birinci müəmma**

Prezident İlham Əliyev məlum sərəncamı Qazaxıstandan qayıtdıqdan bir neçə saat sonra imzalayıb. Məlumdur ki, oktyabrın 16-da Qazaxıstanda MDB liderlərinin sammiti keçirilirdi. Sammitdə əsas müzakirə mövzularından biri də MDB məkanında İŞİD sıralarına qoşulanlarla bağlı mübarizə olub. Sammit davam edərkən MTN Bakıda İŞİD terrorçularının həbsi xəbərini yayıb və dəqiq vaxtı açıqlanmayan əməliyyatda saxlanılan Azərbaycan vətəndaşları haqda süjet televiziyalara ötürülüb.

Prezidentin Qazaxıstandakı qeyri-rəsmi görüşləri ilə bağlı heç bir xəbər yoxdur. Amma bir gün sonra, oktyabrın 17-də Qazaxıstandan qayıdan İlham Əliyev "daha bir uğurlu antiterror əməliyyatı keçirmiş" nazirliyin rəhbərini işdən çıxarıb. Ola bilsin ki, MTN və barələrində həbs iddiaları yayılan generalitet prezidentin onlarla bağlı sərt mövqeyindən xəbərdar olduqları üçün antiterror əməliyyatı ilə bağlı həbsləri həmin gün efirə verməyi lazım biliblər, bəlkə də özlərini xilas edə biləcəklərini düşünüblər. Burada prezidentin ölkədə olmadığı vaxt - əgər həbslərlə bağlı xəbərlər doğrudursa - hansısa "baş tutmayan çevriliş" iddialarından da danışmaq mümkündür. Amma diqqəti daha maraqlı bir detala yönəldək. Sərəncam elan edilməzdən bir gün əvvəl çox yüksək rütbəli bir Rusiya rəsmisi Bakıda idi. Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin. Rəsmi xronikada bildirilir ki, Bastrıkin Bakının görməli yerlərini gəzib və BDU-da tələbələrə mühazirə oxuyub. Bastrıkin Bakıda çox olub, o, professor İlham Rəhimovun dostudur və adətən, onun qonağı olur. Amma Rusiya rəsmisinin budəfəki səfərinin MTN-də baş verənlərlə eyni vaxta düşməsi sırf təsadüfmü? Bastrıkinin qovluğunda daha nə gətirə biləcəyi haqda əlavə mülahizə yürütmədən yalnız Rusiya faktoru ilə bağlı yayılmış bir mülahizəni də diqqətə çatdırırıq. Bir versiyaya görə, Eldar Mahmudov qərbyönümlü məmurlardan olmaqla, ABŞ və İsrail xüsusi xidmət rəhbərləri ilə əməkdaşlıq içərisində olub. İddiaya görə də son vaxtlar ölkənin siyasi kursunun Rusiyaya yaxınlaşması bu cür mühüm postda Qərblə iç-içə olan birisinin qalmasını mümkün etməyib.

**Eldar Mahmudovun məhz 17 oktyabrda işdən çıxarılması 10 il əvvəlki hadisələrlə möcüzəvi şəkildə səsləşir - 2005-ci ildə və məhz 17 oktyabrda Əli İnsanovla Fərhad Əliyev həbs edilmişdi**

**İkinci müəmma**

Eldar Mahmudovun işdən çıxarılacağı ilə bağlı informasiyalar bu ilin martında - qudası Cahangir Hacıyevin nəzarət səhmləri dövlətə məxsus Beynəlxalq Bankda kreditləri özünə yaxın iş adamlarına, şirkət və zavodlarına taladığı üzə çıxdıqdan sonra yayılmışdı. Tənqidçi media nazirin bu məsələdə rolu olub-olmadığını məhkəmə perspektivindən yayınmaq üçün çox qabarda bilməsə də, MTN şefinin hakimiyyətin etibarından düşdüyü qabarıq görünməyə başlamışdı. May ayında məhz E.Mahmudovun da iştirak etdiyi toplantıda prezident ilk dəfə kredit qalmaqalı ilə bağlı çox sərt bir açıqlama vermişdi. Yanan bina ıl bağlı dövlət komissiyasının iclasında prezident bildirmişdi ki, iş adamları dövlət əmlakını talayıb, dövlət vəsaitini oğurlayıblar: "Vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər, ondan sonra məsuliyyətdən yayınmaq istəyirlər. Əfsus ki, onlara himayədarlıq edən dövlət məmurları da var, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar. Burada oturanlar mənim mövqeyimi bilir. Bir adam, xüsusi ilə dövlət məmuru, böyük vəzifə sahibi məsuliyyətdən qaça bilməyəcək. Məsuliyyətli olmaq lazımdır. Cinayət törətmisənsə, get, cəzasını çək".

Prezident kredit qalmaqalı ilə bağlı ad çəkməsə də, "vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər", "onlara himayədarlıq edən dövlət məmurları da var, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar" sözlərinin orada oturan dövlət məmurlarından quda-nazirə ünvanlandığı aydın idi. Bundan sonrakı açıqlamalarında da prezident neftin yaratdığı maliyyə krizisində dövlət əmlakının bir qrup tərəfindən mənimsənildiyini demiş, manatın devalvasiyasından istifadə edərək daha da varlanmaq istəyənləri "çirkin niyyətli adamlar" adlandırmışdı. Qeyd edək ki, C.Hacıyevin manatın fevralda baş verən devalvasiyasından bir neçə gün əvvəl külli miqdarda manatı dollara çevirdiyi barədə də səhih məlumatlar vardı. Bu talançı qrupa rəhbərlik edənin ölkənin milli təhlükəsizliyi etibar edilmiş nazirə - E. Mahmudova ən yaxın adamın olması və onun bu cinayətləri barədə prezidentə məlumat belə verməməsi çoxsaylı suallar doğururdu. Məsələn, iddia vardı ki, bu maliyyə cinayətləri açıldıqdan sonra prezidentə məruzə edilib ki, C.Hacıyevin ölkə dışında olan zavod-fabriklərinə əsas şərik elə qudası olub.

**Sərəncam elan edilməzdən bir gün əvvəl çox yüksək rütbəli bir Rusiya rəsmisi Bakıda olub**

E.Mahmudovun prezident qarşısında mənəvi sıxıntılar keçirdiyi onun müşavirədəki son davranışlarından da hiss edilməyə başlamışdı. Nazir efirdə narahat və prezidentin son qərarını sanki onun üzündən oxumağa çalışırmış kimi görünürdü.

MTN Akademiyasının rəisi Ziya Yusifzadə ilə bağlı sentyabrın 30-da keçirilən vida törənində E.Mahmudovun gözə dəyməməsi diqqətdən yayınmadı. Oktyabrın 8-də prezident türkdilli dövlətlərin xüsusi xidmət orqanları rəhbərlərini qəbul edəndə də nazirə, nədənsə, çıxış üçün söz verilmədi. Qonaqlar adından Türkiyə Milli İstihbarat Təşkilatının müstəşarı Hakan Fidan çıxış etdi...

Məlumatlara görə, E.Mahmudov son günlərədək daima işə gəlib və son rəsmi görüşü əmri verilməmişdən üç gün əvvəl Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Patrik Vial ilə olub. Yeni nəqliyyat naziri Ziya Məmmədov kimi o, "məzuniyyətə getməyib". Bir iddiada isə deyilir ki, nazir fəlakət kimi "maliyyə xəyanətindən" qurtulmağa və qudasını həbsdən xilas etməyə ümidli imiş.

Oktyabrın 18-də yayılan başqa bir sensasion xəbərdə isə deyilir ki, prezident ölkədən gedən gün - yəni oktyabrın 16-da Xüsusi Dövlət Mühafizə İdarəsinin qüvvələri MTN-in bütün açar nöqtələrini nəzarətə götürübmüş. Əməliyyat isə baş qoruman Axundova və idarənin rəisi Bəylər Əyyubova həvalə olunubmuş. Xəbərlərdə deyilir ki, Cahangir Hacıyev nəhayət tutulub. O, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılır və bu gün - oktyabrın 19-da məhkəmə qərarı ilə barəsində həbs qətimkan tədbiri seçiləcək.

Mart ayından bəri "bank xortumlanması işi"nə görə xeyli adam həbs olunsa da, işdə əsas suçlu olan C. Hacıyevin niyə həbs edilməməsinin səbəbi kimi MTN şefi ilə qohumluğu göstərilirdi. Artıq sabiq bankirin bütün qoruyucu qalxanları söküldüyü üçün C.Hacıyevə də həbsxananın yolu göründü - güman ki, bu gün məhkəmədə onu qandallayacaqlar. "Yeni Müsavat"dakı məlumata görə, C. Hacıyev şənbə günündən saxlanılıb, hazırda MCQBMİ-dədir; bu gün ona məhkəmə ilə həbs qətimkan tədbiri seçiləcəyi gözlənilir.

**Hakimiyyət ölkədə sabitliyi poza biləcək bütün önləmləri alsa da, hətta seçkiyə barmaq hesabı sayılacaq müxalifətçi buraxsa da, istənilən halda MTN kimi çox əhəmiyyətli bir quruma niyə indi "əl gəzdirdi"?**

Bəs, MTN sefi və onun qudası ilə bağlı bir neçə aylıq güzəştin səbəbi nə ola bilərdi? Axı, bankirlə birgə naziri də vəzifədən eyni vaxtda uzaqlaşdırmaq mümkün olduğu halda niyə bu hadisələr parlament seçkilərinə iki həftədən də az vaxt qalmış gerçəkləşdi? Hakimiyyət ölkədə sabitliyi poza biləcək bütün önləmləri alsa da, hətta seçkiyə barmaq hesabı sayılacaq müxalifətçi buraxsa da, istənilən halda MTN kimi çox əhəmiyyətli bir quruma niyə indi "əl gəzdirdi"? Burada da daha bir mühüm sual qafaları qarışdırır: əgər nazirlə bağlı proses onun istefası ilə nəticələnəcəkdirsə, niyə bu müddətdə onun yerinə müəyyənləşmiş namizəd təyin edilmədi? Bu qərarı bunca tezləşdirən səbəb nə ola bilər?

**Üçüncü müəmma**

E.Mahmudovun məhz 17 oktyabrda işdən çıxarılması 10 il əvvəlki hadisələrlə də möcüzəvi şəkildə səsləşir. Düz on il əvvəl - 2005-ci ildə və məhz 17 oktyabrda iqtidar ən qüdrətli iki nazirini - Əli İnsanovla Fərhad Əliyevi vəzifələrindən azad edərək "dövlət çevrilişinə cəhd" ittihamı həbsə atmışdı. Əməliyyata isə MTN rəhbəri E.Mahmudov başçılıq etmişdi ki, indi onun özünə qarşı da hansısa həbsli əməliyyatlar aparıldığı xəbəri yayılıb. Maraqlıdır, hakimiyyət başçısı 10 il əvvəlki qərarını yenidən eyni gündə yada salmaqla komandaya nə mesajı vermiş olub? "Təsadüfün bu boydaşı olurmu" soruşulsa, bizcə, bu qədər üst-üstə dəng gəlməsi mümkünsüz kimi görünür.

"Yeni Müsavat" hələ ötən həftə prezidentin E.Mahmudovun da iştirak etdiyi son müşavirədə oliqarx-məmurlara sonuncu xəbərdarlıqlarından çıxış edərək ölkədə antikorrupsiya həbslərinin başlayacağını və bu dəfə "daha böyük başlar"ın bundan ziyan çəkəceyinin yazmışdı. Prezident "artıq qurtardı, yeni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın" deməklə əslində hakim komandada ciddi dəyişikliklərin olacağını anons etmişdi. Yazıda o da qeyd edilirdi ki, bu dəyişikliklərə qarşı müqavimətin olacağı da mümkündür. Prezident hələ ki böyük ağırlıqla Beynəlxalq Bank işinə görə hakimiyyətin ən ciddi və əhəmiyyətli fiqurlardan birini işdən uzaqlaşdırdı. Həm də təhlükəsizlik nazirini. Bu həm də o deməkdir ki, prezident təhlükəsizlik nazirini dəyişmək və özünə sədaqətli kadrın bu posta əyləşməsini təmin etməklə ilk növbədə müqavimət mərkəzlərinin zərərsizləşdirməyi təmin etməyi düşünür.

**Dördüncü müəmma**

Media ən sevdiyi işə - kadr axtarışına başlayıb. Yeni nazirin kimliyini araşdırmaq razılaşaq ki, indilikdə çox tirajlıdır. Amma belə görünür ki, indi bu işdə mediadan daha maraqlı qüvvələr də var. Yeni nazir postuna adları çəkilənlərin sırasını baxaq: milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəis müavini Əli Nağıyev, prezidentinin müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri şöbəsinin müdiri Məhərrəm Əliyev, Naxçıvan MR-in milli təhlükəsizlik naziri Vəli Ələsgərov, milli təhlükəsizlik nazirinin birinci müavini Elçin Əliyev, prezidentin müdafiə məsələləri üzrə köməkçisi Vahid Əliyev...

Siyahıya düşmək üçün həvəslilər çoxdur. Amma qərarı prezident verir və məhz kimin bu mühüm posta təyin ediləcəyi barədə tezliklə hamı biləcək. Prezidentin təyinatından sonra E.Mahmudovun işdən çıxarılmasının digər səbəbləri haqda da danışmaq mümkün olacaq.

❑ **"Yeni Müsavat"**



# Sən haralısan, haralı... nazir?

**Samir SARI**

**Uzun illərdir ki, ölkəmizdə ən mühüm siyasi hadisə nazir dəyişikliyidir. Bir qayda olaraq rayonlarda da başçı, rəis dəyişikliyi bir nömrəli siyasi hadisə sayılır. Bu, niyə belədir, bilirsinizmi?**

Necə olur ki, insanların taleyini həll edən başlıca siyasi hadisə, proses olan seçkiylə maraqlanmayan camaatımız ellikcə nazir, başçı, rəis dəyişikliyi ilə maraqlanır, bunu günlərlə müzakirə edir?

Burda elə bir sirr yoxdur, əziz oxucular. Bu, ona görə belədir ki, ölkə insanı hər şeyə, oxumuş adamların sözü olmasın, merkantil və korporativ maraqları prizmasından yanaşır.

Bizə yeni nazirin hansı universiteti bitirməsi, hansı postlarda nə dərəcədə uğurlu, təmiz çalışması, yüksək vəzifədə çalışarkən qanunlara necə riayət edəcəyi maraqlı deyil. Bizə onun ilk növbədə haralı olması, hansı qohumumuzla, tanışımızla birgə təhsil alması, birlikdə işləməsi, qanunpərəst olmasındansa, elcanlı, qohumcanlı olması maraqlıdır.

Yeni nazir yerlimiz olarsa, bu o deməkdir ki, o, prinsipcə, ətrafına bir xeyli eloğlumuzu yığacaq. Belə olanda da xeyli adama gəlirli iş yerləri açılacaq. Məsələn, tutaq ki, Nehrəli kəndinin bir oxumuş oğlu hərlənib, fırlanıb Gömrük Komitəsinə sədr gəlir. O, ilk növbədə nə edir? Heç zad. Kadr islahatlarına başlayır və bir-iki ldən sonar rəhbərlik etdiyi strukturun 90 faizinin öz kəndçilərindən ibarət olmasını təşki edir. Bəs bu nə deməkdir? Villalar, ciplər, bahalı tətillər, dəbdəbəli toylar, şan-şöhrətli qohumluqlarE

Belə olandan sonra nehrəlilələr üçün nazirin kim olmasının fərqi oldumu, olmadımı? Oldu. Bəs yerdə qalanlar üçün? Onlar üçün də fərq olur, əlbəttə. Onların malı gömrükdən keçmirmi? Keçir. Onları gömrük məntəqələrində inək kimi sağıb, "süd"lərini ümumi nehrəyə töküb çalxalayıb, yağını yağ, ayranını ayran etmirlərmi? Edirlər.

Ona görə də başqaları da istəyirlər ki, yeni nazir onların kəndçiləri, rayonluları olsun.

Amma insanlıq halıdır, əgər yeni nazir yerlipərəstlik və qohumbazlıq edən adam olmasa, ona ən çox nifrəti, bilirsiniz, kimlər bəsləyir? Öz kəndçiləri, öz cəhrəlililəri (tutaq ki). Ona görə ki, o nazir dal qapıdan soxulub babat bir post məngirləmək istəyən eloğlusuna boz üz göstərib, kəndinin oğullarını rəhbərlik etdiyi strukturda adi işlərə belə götürməyib. Onda adamın adı bədnam çıxır. Kəndçiləri həmin xeyirsiz nazirlə nəinki qürur duymurlar, hətta bütün xeyir-şər məclislərində onun dalınca danışırlar, deyirlər, yaralı barmağa ilk tibbi yardım edən qurumsaq deyil, haram olsun ona bu kəndin çörəyi, yıxılıb arvad tərəfə, eyzən arvad tərəfinin qohumlarına iş verir və sair və ilaxır.

Xoşbəxtlikdən, bizim nazirlərimizin tam əksəriyyəti eloğlu qədri bilənlərdir, qohumlarına da əl tutur, yerbəyer edirlər, orta məktəb, universitet yoldaşlarını da unutmurlar.

Bu üzdəndir ki, hər yeni təyin olunan nazirin kimliyi, türkün sözü, mərcək (lupa) altına alınır, özünün, ata-anasının, xanımının haralı olması incələnir, bütün qohumluq, dostluq bağları tapılır, üzə çıxarılır. Hər dəfə xeyli bəxti gətirənlər olur. Məsələn, hansısa xırda bir dövlət qulluğunda işləyən məmur yeni nazirin əsgərlik yoldaşının qardaşıdırsa, yaxud onun atası ilə bunun atası çaydan keçəndə qoşqu təması ediblərsə və arada salam-əleyk qalırsa, məsələ həll olunmuşdur, tezliklə o xırda məmur idarə rəisi olacaq. Başqa kim olasıdır ki? Yeni nazir özünə komanda yığmalıdır, ya yox? Bu halda çoxdan tanıdığı adamı qıraqda qoyacaq, gedib yad rayondan olan birini gətirib yanında işlədəcək? Nə olsun ki, yad rayondan olan məmur iki universitet qurtarıb.

Bizim bəxtimiz əvvəldən gətirmədi, elə kəndçimiz oldu ki, BDU-nu qırmızı diploma bitirdi, bir neçə il işlədi, gedib Ali Partiya Məktəbini (indiki İdarəçilik Akademiyası), yenə 3-4 il ortabab vəzifələrdə çalışdı, gedib Moskvada Ali Milis Akademiyasını qurtarıb gəldi, üç qırmızı diplomla ən böyük vəzifəsi balaca rayonlarda polis şöbəsinin rəisi oldu. Birinci dəfə onu 1989-cu ildə daha yüksək vəzifəyə təyin etmədilər ki, Vəzirovun yerlisidir, yaxşı çıxmaz, yerlibazlıq kimi görünər. İkinci dəfə də 1994-cü ildə daha yüksək vəzifəyə qoymadılar ki, Vəzirovun yerlisidir, yaxşı olmaz. Beləcə, eloğlumuz polkovnik olduğu vaxt serjant olanlar yekəlib general oldular, bizimki eləcə polkovnik qaldı.

İndi görək yeni nazirlər haralı olacaqlar, heç olmasa dostlarımızın tanışı-zadı olacaqlarmı?

# Müxalifət və sabiq MTN-çilər Eldar Mahmudovun istefaya göndərilməsindən danışdılar

**"Eldar Mahmudov milli təhlükəsizlik nazirliyi sisteminə uyğun olmayan kadr idi. Onun 2004-cü ildə milli təhlükəsizlik naziri təyin olunması hakim ailəyə sədaqəti, yaxınlığı ilə bağlı idi. Görünür, bu sədaqət məsələlərində müəyyən problemlər yaranıb və ona görə də Eldar Mahmudov vəzifəsindən azad edilib".**

Bu sözləri Müsavat Partiyasının başqanı Arif Hacılı E. Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən kənarlaşdırılmasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, E.Mahmudov Milli Təhlükəsizlik Nazirliyi sisteminə uyğun olmayan kadr idi: "Onun 2004-cü ildə milli təhlükəsizlik naziri təyin olunması hakim ailəyə sədaqəti, yaxınlığı ilə bağlı idi. Görünür, bu sədaqət məsələlərində müəyyən problemlər yaranıb və ona görə də Eldar Mahmudov vəzifəsindən azad edilib. Bu illər ərzində ölkənin milli təhlükəsizlik naziri olan Eldar Mahmudov daha çox hakimiyyətə opponent olan qüvvələrin izlənməsi, onlara təzyiq göstərilməsi kimi işlərlə məşğul idi. Vəzifədən azad edilməsinin müsbət tərəfi odur ki, hakimiyyətdə olan müxtəlif məmurlar da onları da belə bir günün gözlədiyini özləri üçün qətiləşdirəcəklər".

A.Hacılı yeni milli təhlükəsizlik nazirinin kim ola biləcəyi ilə bağlı sula cavabında dedi ki, hakimiyyətin kadr təyin etmə prinsipləri ilk növbədə sədaqətə, regionçuluğa əsaslanır: "Ona görə Eldar Mahmudovu əvəzləyəcək şəxsin də daha çox həmin prinsiplərə cavab verən şəxs olacağı gözlənilir. Hesab edirik ki, sözügedən sahənin əsl peşəkarı olan, real olaraq dövlətini, xalqını sevən, milli təhlükəsizliyi hər şeydən üstün tutan bir şəxsin naziri təyin olunması vacibdir".

Milli təhlükəsizlik nazirinin keçmiş birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər isə bildirdi ki, təxminən iki ay öncə onda Eldar Mahmudovun vəzifədən azad ediləcəyi barədə məlumat olub: "Məndə olan məlumatlarda onun yerinə təyin edilməsi gözlənilən şəxslərin də adı çəkilirdi. Bu barədə informasiya cəmiyyətdə geniş yayılmasa da şəxsən mənim üçün ölkə başçısının bu addımı gözlənilməz olmadı. Zamana diqqət yetirsək görürük ki, İlham Əliyev Qazaxıstanda MDB dövlət başçılarının toplantısından geri dönəndən sonra, özü də parlament seçkilərinə cəmi iki həftə qalmış Eldar Mahmudovu vəzifədən azad etdi. Belə bir vaxtda İlham Əliyevin bu cür qərar verməsinin onu qəzəbləndirən konkret informasiya ilə bağlı olduğunu düşünürəm. Burda da iki məsələ ola bilər. Birincisi, Beynəlxalq Bank qalmaqlı, ikincisi, ölkədə yaranmış durum, informasiya təhlükəsizliyi amili. Ölkə başçısının seçkiyə çox az qaldığı



**Arif Hacılı:** "Vəzifədən azad edilməsinin müsbət tərəfi odur ki..."



**Sülhəddin Əkbər:** "İlham Əliyevin bu cür qərar verməsi onu qəzəbləndirən konkret informasiya ilə bağlı ola bilər"



**Ərəstun Oruclu:** "Eldar Mahmudov və onun komandası ölkənin milli təhlükəsizlik sisteminə çox ağır zərbə vurdu"

bir zamanda milli təhlükəsizlik nazirini vəzifədən azad etməsi üçün şübhəsiz ki, çox ciddi səbəblər olub. Bu adi hadisə deyil".

S.Əkbərin fikrincə, indiki geopoloitik vəziyyət tələb edir ki, siyasi kəşfiyyat sahəsində ciddi təcrübəsi olan bir adam milli təhlükəsizlik naziri vəzifəsinə təyin edilsin.

Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, Nazirlər Kabinetinin üzvünü təyin etmək və azad etmək ölkə prezidentinin müstəsna səlahiyyətidir: "Təbii ki, Milli Təhlükəsizlik Nazirliyi kimi bir qurumun rəhbərinin gözlənilmədən vəzifədən azad olunması cəmiyyətdə rezonans doğurur. Hesab edirəm ki, prezidentin kimi o posta təyin edəcəyi, hansı meyarlara cavab verən adamın təyin ediləcəyi məsələ də bizim yox, konstitusiya ilə prezidentin səlahiyyətində olan məsələ olduğu üçün əlavə şərhim yoxdur".

Sabiq MTN zabiti, Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu isə milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifədən azad edilməsinə belə münasibət bildirib:

"Xəbər yayılan andan müxtəlif media və saytlarda bununla bağlı ən fantastik versiyalar hallandırılır, ən ağlasığmaz fantaziyalar öz əksini tapır. Təbii ki, xəbərin gözlənilməzliyinin də burda öz təsiri var. Amma bu tip məlumatların Eldar Mahmudovun hələ MTN-də qalan komandası tərəfindən dövriyyəyə buraxılması da istisna deyil. Səbəb də bəllidir - indi hər kəs bu illər ərzində törətdiyi əməllərini xatırlayıb, özünü, müqəddəratını düşünür və ona görə də həmin müddətdə cəmiyyətdə yaradılmış "MTN xofunu" maksimum yaşatmaq kimi bir saman çöpündən yapışır. Eldar Mahmudovun vəzifədən çıxarılması bizim üçün sürpriz olmadı, bizim mərkəzdə bu barədə məlumatlar və ehtimallar hələ 2 ay əvvəl vardı və bir xeyli jurnalist, redaktor dostlarımızla da bunu bölüşmüşdük".

Ə.Oruclu qeyd edib ki, hətta ən fantastik versiyalar belə reallaşsa - Eldar Mahmudov baş nazir olsa, o, istənilən halda əvvəlki səlahiyyətlərə və imkanlara malik olmayacaq: "Amma təəssüflə bunu da qeyd etməliyəm ki, nazir olduğu müddətdə Eldar Mahmudov və onun əsasən polis orqanlarından gətirilmiş komandası ölkənin milli təhlükəsizlik sisteminə çox ağır zərbə vurdu. Dünyanın aparıcı ölkələrində antiterror, mütəşəkkil cinayətkarlığın müxtəlif formaları ilə mübarizə sahəsində qabaqcıl təcrübələrə yiyələnmiş yüzlərlə peşəkar MTN əməkdaşı təhlükəsizlik orqanlarından kənarlaşdrıldı, onların yerini isə polis orqanlarından gətirilmiş, tapşırıqla, xahişlə və digər vasitələrlə işə qəbul olunmuş yeni əməkdaşlar ordusu tutdu. Belə praktika milli təhlükəsizlik orqanlarının peşəkarlıq və mənəvi səviyyəsinin sürətlə aşağı düşməsinə gətirib çıxardı ki, bu da ölkənin mühüm dayaqlarından olan bir qurum üçün yolverilməz hal idi. Ümid edək ki, indi keçmiş nazirin 11 illik fəaliyyətinin acınacaqlı nəticələrinin aradan qaldırılması üçün zəruri addımlar atılacaq və bu addımların da ən təxirəsalınmazı MTN-nin ona yad olan zümrələrdən təmizlənməsi olacaq".

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015

**Azərbaycanın sabiq maliyyə naziri, professor Saleh Məmmədov müsavat.com redaksiyasına özünün yazısını göndərib. Professor həmin yazısında ölkənin iqtisadi münasibətlər sistemi üçün inqilabi dəyişikliklər təklif edir. Mütəxəssislər tərəfindən ciddi müzakirələrə səbəb olacaq həmin yazını olduğu kimi təqdim edirik:**

# Maliyyə professorundan prezidentə inqilab kimi layihə təklifi - sənəd

## Saleh Məmmədovdan Azərbaycanda iqtisadi islahatların dərinləşdirilməsinə dair maraqlı mövqe

Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Buna uyğun olaraq, iqtisadi münasibətlər də inkişaf etdirilməlidir, islahatlar davamlı və fasiləsiz olmalıdır. Məhsuldar qüvvələrin sürətli inkişafı eyni templə iqtisadi münasibətlərin inkişafını tələb edir. Prezidentin iqtisadi inkişaf proqramında bu məsələlər qırmızı xətlə keçir və açıq görünməkdədir. Xüsusilə son çıxışlarında prezident iqtisadi islahatların dərinləşməsinə böyük ehtiyaclar olduğunu qeyd etmiş və müvafiq qurumlara göstəriş vermişdi.

Əlbəttə, hər bir qurum ayrı ayrılıqda proqramlar, layihələr hazırlayacaq. Mən də, ümumiləşdirilmiş bir layihə tərtib etdim və bu gün prezidentə, hökumətə və müvafiq dövlət qurumlarına təqdim etmək istəyirəm.

Bununla bərabər:

- bu layihənin ideal bir sənəd olduğunu iddia etmirəm, bəlkə çoxlu səhvlər, səmərəsiz təkliflər ola bilər, amma hesab edirəm ki, zəif tərəflər müzakirə oluna bilər və bütövlükdə islahatların hazırlanması üçün bu layihə faydalı ola bilər;

- bu sənəddə yalnız prezidentin qarşıya qoyduğu məqsədə çatmaq yolları, onun detalları verilmişdir və bütün istiqamətlər prezidentin götürdüyü strategiyaya uyğun işlənmişdir. Layihədə elə məsələlər var ki, mənim də fikirlərimin əksinədir; amma prezidentin strategiyasına uyğundur (məsələn ÜDM-in bölgüsündə büdcənin payının azalması);

- Prezident Azərbaycan iqtisadiyyatını dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmağı strateji məqsəd kimi qarşıya qoymuşdur, buna görə bu layihəni hazırlayarkən, bir qədər fərqli yanaşmışam. Bir və ya bir neçə ölkənin təcrübəsi deyil, hər sahə üzrə ən birinci yerdə duran ölkələrin təcrübəsinə əsasən ümumiləşdirərək, bütün sahələri uzlaşdırmağa çalışmışam. Məsələn, KOB-ların inkişafı üzrə Türkiyə və Çin, kənd təsərrüfatının inkişafı üzrə İsrail və Hollandiya təcrübəsi, elmin inkişafı üzrə ABŞ və İsrail təcrübəsi, tranzit iqtisadiyyatı üzrə Sinqapur və BƏƏ və s.

Hesab edirəm bu cür yanaşma ilə ali məqsədə daha tez çata bilərik.

***

Layihə

___oktyabr 2015-ci il

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında iqtisadi islahatların dərinləşdirilməsi tədbirləri haqqında

Azərbaycanda ali məqsədə - ölkənin iqtisadi inkişaf səviyyəsini dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatdırmaq üçün son dövrdə iqtisadi inkişafda böyük nailiyyətlərin daha da inkişaf etdirilməsi əsasında və ölkədə sıçrayışlı inkişafın tempinə uyğun gələn iqtisadi sistemin yenilənməsi və iqtisadi islahatların dərinləşdirilməsi məqsədilə qərara alıram:

I. İqtisadi idarəetmə üsulları ölkənin sürətli iqtisadi inkişafının təmin olunması, insan amilindən yüksək istifadə, elmi texniki tərəqqinin inkişafının sürətləndirilməsi və onun nailiyyətlərinin milli iqtisadiyyatın bütün istiqamətlərinə tətbiqi, iqtisadi sistemin ciddi surətdə liberallaşdırılması və ölkənin daxili resurslarının daha səmərəli istifadə edilməsi prinsiplərinə uyğun olaraq təkmilləşdirilsin.

Bu məqsədlə:

- Maliyyə sistemində islahatlar davam etdirilsin, resursların bölgüsündə dövlətin mərkəzləşdirilmiş fondlarının, xüsusilə dövlət büdcəsinin payının azalması hesabına müəssisə, korporasiyaların, bank və bütövlükdə maliyyə bazarının rolunun yüksəldilməsinə yönəlik tədbirlər həyata keçirilsin, vergi dərəcələri əhəmiyyətli şəkildə azaldılsın və milli iqtisadiyyatın müxtəlif sahələrində vergi obyektlərinin artırılması və vergidən yayınmaların azaldılması hesabına büdcə stabil və davamlı gəlir mənbəyi ilə təmin olunsun;

- Genişləndirici maliyyə siyasətinə keçid təmin olunsun, bu məqsədlə pul bazasının və manatın emissiyasının əhəmiyyətli dərəcədə genişləndirilməsi, mərkəzi bankın rezerv normalarının və uçot dərəcələrinin azaldılması və bütövlükdə pul bazasının genişləndirilməsi istiqamətində ciddi tədbirlər alınsın;

- Manatın dəyərinin qorunması üzrə bütün zəruri tədbirlər görülsün və tədricən manatın rezerv valyutasına çevrilməsi təmin olunsun. Qardaş ölkələrlə qızıl-valyuta rezervləri ittifaqının yaradılması haqqında danışıqlara başlanılsın;

- Bank sistemində köklü islahatlar davam etdirilsin, ölkənin sürətli iqtisadi inkişafını maliyyə resursları ilə tam təmin etmək üçün bank aktivlərinin ölkənin ÜDM səviyyəsinə çatdırılması, bu məqsədlə pul bazasının genişləndirilməsi, bütün daxili pul ehtiyatlarının ictimai dövriyyəyə cəlb olunması, əmanət sisteminin yenidən qurulması, yeni əmanət növlərinin (hökumət əmanətləri, məqsədli pensiya əmanətləri, məqsədli investisiya əmanətləri, dövlət investisiya layihələrinə dövlət qarantiyası ilə məqsədli əmanət) tətbiqi, nəqdsiz pul dövriyyəsinin genişləndirilməsi, bütün regionlarda, həmçinin kənd və qəsəbələrdə bank filiallarının, şöbələrinin və bankomatların qurulması, həmçinin xarici hüquqi və fiziki şəxslərdən, xüsusilə, xaricdə yaşayan həmvətənlərimizdən əmanətlərin toplanmasına hər cür şərait yaradılması, Azərbaycanın böyük banklarının dünyanın bütün iri maliyyə mərkəzlərində filiallarının qurulması və bu filiallar vasitəsilə ölkəyə maliyyə axınının artırılması təmin olunsun. Bakı şəhərinin regional maliyyə mərkəzinə çevrilməsi üçün proqram hazırlansın. Azərbaycan Respublikası Mərkəzi Bankının 49% həcmində özəlləşdirilməsi tədbirləri görülsün;

- Kredit faizlərinin (pulun qiymətinin) beynəlxalq bazarla uyğunlaşdırılması və bərabərləşdirilməsi məqsədilə kompleks proqram hazırlansın, kreditə təkliflə tələb arasında tarazlığı təmin etmək üçün kredit ehtiyatlarının həcminin artırılması istiqamətində kompleks tədbirlər planı hazırlansın;

- Ölkəyə kapital axınının gücləndirilməsi məqsədilə xarici kapitalın stimullaşdırılması və qorunmasının daha da gücləndirilməsi məqsədi ilə kompleks tədbirlər sistemi hazırlansın. Maliyyə amnistiyası üzrə kompleks proqram hazırlansın;

- Dövlət şirkətlərinin və əmlaklarının özəlləşdirilməsi üzrə iş davam etdirilsin, Asan Xidmətin qabaqcıl təcrübəsi nəzərə alınaraq bir sıra dövlət xidmətlərinin özəl sektora verilməsi üçün sınaq keçirilsin. Vergi xidmətinin özəl sektora verilməsi və bu sahədə pilot layihə kimi orta şəhərlərdən birinin beynəlxalq yüksək reytinqli auditor şirkətinə verilməsi üçün tender keçirilsin;

- Azərbaycan hökumətinin və bütün rezidentlərin xarici ölkələrdə investisiya qoyuluşlarının hüquqi bazası yaradılsın, həmin investisiyaların liberal prinsiplər əsasında hərəkəti, qeydə alınması, uçotu və ölkə ərazisində vergiyə cəlb olunması sistemi qurulsun.

II. İqtisadi islahatların dərinləşdirilməsi və mövcud potensialın qiymətləndirilməsi əsasında iqtisadi inkişafın paritet sahələri müəyyən olunsun və həmin sahələrin inkişafının daha da sürətləndirilməsi təmin olunsun;

1. Kiçik və orta biznesin inkişafı ən mühüm prioritet sahə elan olunsun və bütün daxili ehtiyatlar onun inkişafı üçün səfərbər edilsin:

- 2016-cı il kiçik və orta biznes ili elan olunsun, bu il Dünya Bankının "Doing Bizness" şkalası üzrə Azərbaycan Respublikasının reytinqinin dünya ölkələri içərisində birinci onluğa çatdırılması təmin olunsun. Bu istiqamətdə 2015-ci ildə əmlakların qeydiyyatı üzrə ölkənin reytinqinin birinci onluq ölkələrinin səviyyəsinə çatdırılması və buna nail olan dövlət orqanlarının müsbət təcrübəsi xüsusi qeyd olunsun, bununla bərabər dünya ölkələri üzrə ən son yerləri bölüşən xarici ticarət, tikintinin lisenziyalaşdırılması, inhisarın mövcudluğu indeksləri üzrə məşğul olan dövlət orqanlarının olduqca yarıtmaz işi qeyd olunsun;

- Kiçik və orta biznesin (KOB) dəstəklənməsi üzrə mövcud dövlət proqramının genişləndirilməsi ilə yanaşı, yeni dəstək proqramları, xüsusilə ixracatın dəstəklənməsi proqramı, idxal əvəzləyici məhsulların artırılmasına dəstək proqramı, elmi texniki tərəqqinin dəstəklənməsi (ARQE) proqramı, kənd yerlərində KOB-ə dəstək proqramı, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin KOB-ə dəstək proqramı, KOB-in dövlət tenderlərində iştirakına dəstək proqramı, KOB-ə məsləhət, kadrların hazırlanması və ixtisas artımına dəstək proqramı hazırlansın və 2016-cı ildə fəaliyyətə başlanması təmin olunsun;

- KOB-in bütün proqramlarının maliyyələşdirilməsi və kreditləşdirilməsinin təşkili üçün bütün daxili və xarici ehtiyatlar səfərbərliyə alınsın, KOB-ə verilən kreditlərin faizlərinin maksimum pərakəndə nominal həddi 5% təyin olunsun. KOB üçün veriləcək kredit resursları hökumət mənbələri hesabına təmin olunsun;

- KOB-in maliyyələşdirilməsi və kreditləşdirilməsi üzrə təlimatlar hazırlansın və bütün proseslərə ciddi xəzinə nəzarəti təmin olunsun.

- KOB üzrə potensial layihələr paketi hazırlansın, onların maliyyələşdirilməsi və kreditləşdirilməsi sistemi müəyyən olunsun və KİV vasitəsi ilə potensial investorların nəzərinə çatdırılsın. Mərkəzi və yerli hökumət orqanlarının iştirakı ilə ölkənin bütün rayonlarında və kəndlərində sənaye parkları salınsın və bu parklarda KOB -in inkişafına hər cür şərait yaradılsın, yerli hökumət orqanları, bələdiyyə və şəxslər ortaqlığı qurulmasının hüquqi bazası yaradılsın;

- Beynəlxalq iqtisadi proseslər, karbohidrogen resurslara tələbin azalması ilə əlaqədar olaraq neft və qazın ölkədə dərin emalının təşkili, müxtəlif məhsullar, xammal, xüsusilə kompozit materiallar istehsalının genişləndirilməsi üzrə kompleks proqram hazırlansın.

2. Kənd təsərrüfatının inkişafı üzrə böyük rezervlərin və potensial inkişaf istiqamətlərinin olması səbəbilə kənd təsərrüfatının sürətlə inkişafı Azərbaycan hökumətinin ciddi diqqət mərkəzindədir. Kənd təsərrüfatının sürətli inkişafını təmin etmək üçün:



- Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin kəmiyyət və keyfiyyət göstəriciləri ciddi surətdə artırılsın, kənd təsərrüfatı sahələrində istehsal və satışın kreditləşdirilməsi güzəştli aşağı faizlə təmin olunsun, bu sahəyə yönəldilən kredit ehtiyatları zəruri həcmdə hökumət resursları ilə tam təmin olunsun;

- Kənd təsərrüfatına yönəldilən dövlət dotasiyasının verilmə metodları və prinsipləri köklü surətdə təkmilləşdirilsin, yeni sistem son səmərəlilik nəticələrinin yüksəldilməsi məqsədinə uyğun qurulsun;

- Kənd təsərrüfatı istehsalını bazar risklərindən qorumaq üçün əsas məhsul növlərinə məhsul istehsalını zəruri minimum səviyyədə rentabelliklə təmin edə biləcək dövlət alış qiymətləri müəyyən edilsin və fermerlərin istəyinə uyğun olaraq istənilən vaxt dövlət tərəfindən həmin məhsulların alışı təmin olunsun. Alış prosesinin həyata keçirilməsi dövlət resursları ilə təmin olunsun;

- Dövlət dotasiyası əsas etibarı ilə kənd təsərrüfatında elmin maliyyələşdirilməsinə yönəldilsin, bütün elmi tədqiqat və təcrübə sınaq müəssisələrinin işi bərpa olunsun, elmin maliyyələşdirilməsi metodları köklü surətdə dəyişdirilsin, son nəticəyə uyğun olaraq tender və qrant sisteminə üstünlük verilsin;

- Kənd təsərrüfatı məhsullarının ixracının artırılması məqsədi ilə ixrac təşviqləri müəyyən olunsun və ixrac nəqliyyat xərclərinin yarısı dövlət dotasiyası hesabına ödənilsin və bu işə ciddi xəzinə nəzarəti qurulsun;

- İstehsalı təbii risklərdən qorumaq məqsədilə bütün kənd təsərrüfatı istehsalının məcburi sığortası təşkil olunsun, sığorta tədiyyələrinin yarısı (hazırda olduğu kimi) dövlət dotasiyası hesabına ödənilsin.

*(Davamı səh 10-da)*



# Bəlkə də bizi azad ediblər

Zamin HACI
zaminhaci@gmail.com

**Nəqliyyat nazirinin başı üzərində qara buludlar dolaşırkən ildırım milli təhlükəsizlik nazirini vurdu. Sürpriz, analoqu olmayan ölkədə yaşamağımız bir daha sübuta yetirilərək qəmli könlümüz sevindi. Bakıda iqlim də elə bu cürdür: görürsən Biləcərinin üstündə şimşək çaxır, aləm bir-birinə qarışıb, ancaq Binəqədidə günəş çıxıb, çobanlar sürüləri dağın döşünə yaymaqdadır. Yaxud, Əhmədliyə qar yağanda, Yasamalda səbət dalından gilas tökülür. Necə deyərlər, 11 iqlim qurşağından 12-si bizdə vardır. Bir ara Tiflis heyvanat bağçasından qaçan pinqvin elə ona görə Azərbaycana pənah gətirmək istəyirdi, ancaq "Qırmızı körpü"nün gömrüyündən keçməyi bacarmadı. Ordan heç dinozavr keçə bilməz. Əlbəttə, mövzumuz gömrük deyil. Amma istədiyim şeydən yazaram, guya neyləyə bilərsiniz? Mövzunu çevirib lap burda riyaziyyat məsələsi həll edərəm. Konstitusiya haqqım var.**

Elə prezident də çekistlərin nazirini konstitusiya hüququndan yararlanaraq işdən çıxarmışdır. Başqa söhbətlər lazımsızdır. Əsas odur konstitusiyada prezidentin belə bir hüququ var. Ta nə üçün çıxarıb, hara qoyacaq - bunların biz qara camaata dəxli yoxdur.

Hətta ola bilər cənab prezident Eldar müəllimi nəqliyyat naziri qoysun. Ziyanı isə işdən çıxarmasın, bizdə iki nəqliyyat naziri olsun. Niyə də yox? Biri nəql hissəsinə, o biri yatmaq hissəsinə baxar. Biri yolu qazar, o biri "montajlıyar". Biri avtobusu sürər, o biri pulu yığar. Tək əldən səs çıxmaz, amma iki əli bir-birinə şappıldatsan YAP-ın qurultayı yaranar. Bizə birlik lazımdır. Ermənilərin günündə deyilik ki, hamı qaçıb ölkədən, bir kresloya bir nazir də tapılmır. Bizdə namxuda, hər nazir yerinə bir sürü alternativ vardır. Buna görə Zəngilan və Ağcabədi rayon qaçqınları adından dərin minnətdarlığımı bildirirəm.

Yaxşı yadıma düşdü, bundan az öncə də ovçulara nəzarət idarəsinin müdirini işdən qovmuşdular. Səbəb isə bu imiş: ərəb şeyxləri Hacıqabul tərəflərə gəlib ov-ovlayıb, quş-quşlayıblar, ancaq dövlətə rüsum-zad ödəməyiblər. Ovçuluğun müdiri isə buna göz yummuşdur. He-he. Həmin şeyxlərin bizim elə bir nazirlə şəkilləri var idi ki, onları Qəbələ tərəfdə elə bir uca şəxsiyyət qonaq eləmişdi ki, ovçuluğun müdiri qələt edərdi həmin ərəblərə "gözün üstdə qaşın, qolun üstdə qızılquşun vardır" deyərdi. Bəs o cür fövqəltəbii nazirin qonağı olan adama görə ovçuluğun müdiri niyə qovuldu?

Belə sual verirsənsə, deməli, milli mentalitetimizi bilmirsən. Bizdə tarixən "ipdə qalan buzovu" döymək kimi dövlətçilik ənənəsi formalaşmışdır. Yaxud, baxmağı gözü çıxan qardaşdan öyrənmişik. Hər dərədə bir at öldürməyəni baytar vəzifəsinə təsdiq etməmişik.

Yeri gəlmişkən, bizim uca millətimiz Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyət sferası haqda da yaxşı məlumatlara malik deyildi. İdarə Eldar müəllimin "Narxoz"un məzunu, keçmiş "abaxeyis" olmasını nəzərə alıb dükançılardan pul toplamaq işlərinə məşğul idi. Ya da müxalifətçilərin döşəyinə gizli kamera qoyurdular. Ya da jurnalistin cibindən nəşə tapırdılar. Hərçənd, 3 ton heroin keçəndə görmürdülər.

Əslində Eldar müəllimə bu məsələdə təzyiq eləməyin mənası da yox idi. Azərbaycanın nə milli təhlükəsizliyi ola bilər ki? Yarısını ermənilər tutublar, qalan hissəsində Rusiya, ABŞ, İran, Avropa, transmilli şirkətlər nə istəsə edir. Yanacaqdoldurma məntəqəsi kimi bir yerik, burda əsas məsələ o idi içəri siqaretlə-zadla girməyə qoymayasan. İndi heç buna da ehtiyac qalmayıb, şlanq havada uçur.

Misal üçün, ölkənin yarısı penoplastla üzlənəndə, binalar yanıb 16 adam öləndə MTN millətin heç yadına düşmədi. Halbuki, bu elə sırf milli təhlükəsizlik məsələsi idi.

Bəlkə Eldar müəllimi buna görə işdən çıxarıblar? Bəlkə heç çıxarmayıblar, bu da İspaniya səfirimizin geri çağırılması sərəncamı kimi bir zarafatdır? Bəlkə milli təhlükəsizlik nazirini yox, milləti vəzifəsindən azad ediblər? Hər şey ola bilər. Ən düzgün mövqe odur ki, qalan camaat kimi başını atıb yatasan, yuxarıda nə olması ilə heç maraqlanmayasan.

Fiqurlarını düzmədiyin şahmatda hansı gediş olacaq, bundan sənə nə?

# Qaynar müharibələr kəmər müharibələrinə keçir

**Rusiyanın ilk dəfə olaraq Xəzərdən buraxdığı qanadlı raketlər, təbii ki, yalnızca İŞİD -ə tuşlanmamışdı. Eyni zamanda, şimal qonşumuzun yeni qaz strategiyasından dolayı güddüyü hədəflər yolunda köhnə-yeni manevrləri nişan almışdı. Soyuqların düşməsi ilə bu qənaət öz təsdiqini tapmaqdadır.**



# Gizli qaz savaşları - Bakı yenə ön cəbhədə...

## Havaların sərtləşməsi ilə Rusiya bölgədə əsas təzyiq rıçaqını işə salıb; Xəzərdən İŞİD üçün açılan "yaylım atəşi"nin hədəfində bölgənin "Qərb qapısı" Gürcüstan da var; Abid Şərifovun qəfil və məxfi Tiflis səfəri hansı zərurətdən doğub...

Havaların soyuması ilə qaynar müharibələrin öz yerini tədricən gizli-açıq qaz savaşlarına verəcəyi şəksizdir. Hər halda, qanadlı raketlər bu savaşlarının başladığının özünəməxsus anonsu sayıla bilər. Hərbi ekspertlər də hesab edir ki, oktyabr ayından etibarən genişmiqyaslı əməliyyatlar üçün əlverişsiz dönəm başlayır. Söhbət ilk növbədə postsovet məkanındakı Rusiyanın aparıcı aktyor olduğu münaqişə ocaqlarından - Ukrayna və Güney Qafqazdan (Dağlıq Qarabağdan) gedir.

***

Rəsmi Kreml artıq özünün əsas qış silahını işə salmış kimi görünür. Bir əlamət qeyd edildi - Xəzərdən açılan "yaylım atəşi". Moskva bununla, sübhə yox ki, Xəzər hövzəsində əsas hökmran qüvvə olduğunu nümayiş etdirməklə bahəm, digər iki sahilyanı qaz ölkəsinə - Azərbaycan və Türkmənistana ciddi şəkildə göz ağartmış oldu, heç bir təhlükəsizlik alyansının üzvü olmayan Bakı və Aşqabadı qorxutdu.

Bununla eyni vaxta Moskvanın Güney Qafqazın Qərbə əsas çıxış qapısı sayılan Gürcüstanı öz enerji asılılığına salmaq yönündə ciddi uğur əldə elədiyi üzə çıxdı. Bəlli oldu ki, "Qazprom" qərb qonşumuzun da qaz bazarını ələ keçirmək niyyətindədir - özü də maraqlıdır ki, Gürcüstan hökumətinin istəyi ilə.

Yeri gəlmişkən, dünən Tiflisdə bu anlaşmaya etiraz olaraq aksiya keçirilib. Hökumət binası önündə "Qazprom"a yox!" şüarı altında baş tutan aksiyada ölkənin tanınmış simaları, o cümlədən siyasətçilər, "Milli Hərəkat"ın nümayəndələri iştirak ediblər.

İştirakçılardan biri - ekspert Yelena Xoştariyanın sözlərinə görə, "Qazprom" Rusiyanın əlində Avropa və region üçün çox qorxunc bir silahdır: "Birincisi, Rusiyadan qaz təchizatı bizim üçün Moskvadan siyasi asılılıq deməkdir ki, bu, prinsipial olaraq yolverilməzdir. İkincisi, qazla bağlı danışıqların gizli aparılması da yolverilməzdir. Biz bu barədə yalnız Rusiya KİV-dən məlumat alırıq. Bu, o deməkdir ki, Gürcüstan hökuməti milli təhlükəsizlik məsələləri ilə bağlı Rusiya ilə məxfi danışıqlar aparır. Üçüncüsü, biz bununla Gürcüstanın stabil qaz təchizatçısı olan Azərbaycanla münasibətləri korlayırıq. Bu məsələlər bizdən ötrü prioritetdir" - qeyd edib gürcü ekspert.

***

Tiflislə bağlı başqa bir maraqlı hadisə Azərbaycanın baş nazirinin müavini Abid Şərifov və "Azərbaycan dəmir yolları" QSC-nin sədri Cavid Qurbanovun Gürcüstan paytaxtına ötən həftə etdikləri qəfil səfərlə bağlıdır. Haqqin.az saytının yazdığına görə, bu səfər barədə qabaqcadan heç yerdə, heç nə deyilməyib. Onların Tiflisdə olması isə yalnız AZƏRTAC-ın yaydığı kasad bir informasiyadan - Şərifov və Qurbanovun Tiflisdə Heydər Əliyevin abidəsi önünə çiçək qoyması barədə xəbərdən üzə çıxıb.

Səfərin məqsədi haqda da rəsmi heç nə deyilməyib. "Ancaq ehtimal eləmək olar ki, Azərbaycan nümayəndə heyəti gürcü tərəfi ilə danışıqlarda bir sıra problemləri çözəcək. İlk növbədə söhbət gürcü bazarı uğrunda qaz müharibəsinin başlamasından gedir - hansı bazardan ki, "Qazprom" SOCAR-ı sıxışdırıb çıxarmağa səy edir. Nümayəndə heyətinin tərkibində Cavid Qurbanovun olması isə yəqin ki, Bakı-Tiflis-Qars dəmiryolunun Gürcüstan hissəsinin işə salınması ilə əlaqədar olub" - qeyd edib sayt.

***

Bu xüsusda ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" analitik mərkəzinin yanaşması da diqqətçəkəndir. Qurumun hazırladığı son təhlillərdən birində PKK-nın boru kəmərlərinə hücum edə biləcəyi deyilir. Sitat: "Rusiyadan, Azərbaycandan, İrandan və İraqdan gələn neft və təbii qaz Türkiyə tranzit xətti ilə Avropaya çıxır. Türkiyədəki, bölgədəki ekstremist qruplar enerji daşıyan kəmərlərin bəzilərini artıq hədələyir. Xüsusilə, İŞİD və PKK əsas təhlükəli qüvvələrdir. PKK Azərbaycan və İrandan təbii qazı Türkiyəyə gətirən boru xətlərinə hücumlar edib. Əgər oktyabrın 10-da Ankarada törədilən terror aktı xəbərdarlıqdırsa, vəziyyət daha böyük təhlükələrə gətirib çıxara bilər".

"Stratfor" analitikləri daha sonra yazır ki, Türkiyədəki daxili stabilliyin pozulması və terrorçuların aktivləşməsi ilk növbədə 16 milyard kubmetr Azərbaycan qazını Avropaya daşıyacaq Trans-Anadolu boru xəttini (TANAP) ciddi şəkildə hədələyir: "Halbuki bu, Rusiya qazından asılılığını bitirmək istəyən Avropa üçün mühüm layihədir. Türkiyənin dostları, müttəfiqləri, eləcə də investorlar üçün bu ölkənin stabilliyi önəmlidir. Misal üçün, Azərbaycanın SOCAR şirkəti və Böyük Britaniyanın bp şirkətinin əsas payçı olduğu, Avropanın enerji təhlükəsizliyində mühüm rola malik Cənub Qaz Dəhlizinin təhlükəsizliyi Türkiyənin stabilliyindən çox asılıdır".

Bu ilin avqustunda Bakı-Tbilisi-Ceyhan xəttinə PKK-nın hücumunu xatırladan mərkəz onu da qeyd edib ki, kürdlər indi Türkiyənin ən böyük şəhərlərində hər an ayağa qalxmağa hazır vəziyyətdədirlər: "Belə bir vəziyyətdə Türkiyəyə kapital qoyuluşu çətinləşir və bu ölkədə tranzit olaraq daşınan enerjiyə təhlükə yaradır. Xüsusilə Avropaya təbii qaz daşıyacaq TANAP üçün risklər böyükdür. Hesab etmək olar ki, bu kəmərə yarana biləcək təhlükə Rusiyanın əlinə oynamaqdır. Çünki Avropanın Rusiya qazından xilas üçün ilk seçimi budur. "Türk axını" layihəsində yaranan problemlər fonunda Rusiyanın istəmədiyi hər hansı enerji layihəsinin reallaşması Kremli çox qıcıqlandırar. Buna görə də Türkiyə möhkəm olmağa məcburdur, xüsusilə seçki öncəsi yaranmış kritik vəziyyətdə".

"Stratfor"un xəbərdarlığına bu yerdə yalnız onu əlavə eləmək qalır ki, Moskvanın Suriya planları çərçivəsində kürd qruplaşmalarını silahlandırması heç də təkcə İŞİD-lə mübarizə ilə ilgili deyil və indi artıq dəqiqdir ki, daha uzaqgedən hədəflərə hesablanıb...

***

Biz sözlə, gizli-açıq qaz savaşları başlayıb və Bakı yenə onun ön cəbhəsindədir. Bu savaşın önəmini göstərən yeni detallardan biri də Almaniya kansleri Angela Merkelin Rusiyanı "ən yaxşı qaz təchizatçısı" adlandırması sayıla bilər. Merkel özünün ənənəvi həftəlik videoçıxışında Kremlə reverans edərək deyib: "Biz çox şadıq ki, Ukrayna üçün təbii qazın qış təchizatı paketinə dair problemlər yoluna qoyulub. Almaniyanın təbii qaza başqa çıxış imkanları da var. Ancaq ümumilikdə Rusiya ötənlərdə özünü mavi yanacağın etibarlı təchizatçısı kimi tanıdıb".

Alman üçün, avropalı üçün soyuq və qazsız qış, əlbəttə ki, dəhşətli yuxudan da betərdir və bunu ağla da gətirmirlər. Yeri gəlmişkən, Almaniya qaza olan ehtiyacının 60%-ni Rusiya hesabına ödəyir. İndi əgər almanlar da öz işləri xətrinə rusa "ayı" yox, "dayı" deyirlərsə, bu rusun qonşuluğundakı xırda xalqlar və ölkələr üçün bu qış ikiqat çətin keçəcək.

❑ **Analitik xidmət**

**Dünən Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa edilməsinin 24 ili tamam oldu. Azərbaycanın müstəqilliyinin bərpasından keçən bu 24 ildəki uğurlar və uğursuzluqlar barədə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın əsas müəllifi, istiqlalçı deputat, Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri professor Hacıbaba Əzimov maraqlı fikirlər söylədi.**

# Müstəqilliyimizin 24 ili: əsas qazancımız və itkilərimiz

## İstiqlalçı-deputat Hacıbaba Əzimov: "Xalqı müstəqilliyin verdiyi imkanlardan tam yararlanmağa qoymadılar..."



Öncə mühüm tarixi gün münasibəti ilə Azərbaycan xalqını təbrik edən H.Əzimov müstəqilliyin hər bir xalq üçün ən böyük dəyər olduğunu bildirdi: "Milli müstəqillik Azərbaycan xalqının ağır, lakin şərəfli mübarizəsi nəticəsində əldə edilib. Bu, həqiqətən də Azərbaycan xalqının böyük tarixi nailiyyətidir. Müstəqillik əldə etmək bizə asan başa gəlməyib. Bu yolda xalqımız çoxsaylı şəhidlər verib. 20 yanvar qırğını məhz Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin məhv edilməsi üçün həyata keçirilmişdi. Lakin xalqımız müstəqillik istəyindən dönmədi. Şəhidlərin qanı, min cür məhrumiyyətlər hesabına xalqımız müstəqilliyə qovuşdu. Ona görə də 18 oktyabr tarixi elə-belə, sıradan bir tarix deyil. 18 oktyabrda "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul edildəndən sonra dünya Azərbaycanı sivil, müstəqil dövlət kimi tanıdı. Bir müddət sonra biz BMT-yə üzv seçildik. Bu, bizim dövlət və xalq olaraq çox böyük uğurumuz idi".

H.Əzimovun sözlərinə görə, müstəqillik Azərbaycan xalqı qarşısında geniş imkanlar yaradırdı. Azərbaycan xalqı bu müddətdə həmin imkanların müəyyən qismindən yararlana bilsə də bir qismindən yararlana bilməyib: "Azərbaycan bu dövrdə özünün ordusunu, milli valyutasını yaratdı, dünya birliyinə inteqrasiya etdi. Bu müstəqillik imkan verirdi ki, Azərbaycan xalqı öz sərvətlərinin tam sahibi olsun. Müstəqillik bu sərvətlər hesabına xalqın rifahının daha da yüksəldilməsinə, dövlətin sürətli inkişafına imkan yaradırdı. Bu, yüksək iqtisadi inkişaf üçün də böyük perspektivlər açırdı. Lakin təəssüflər olsun ki, müstəqilliyin verdiyi bu imkanlardan lazımınca istifadə edilmədi. Rusiya və onun "5-ci kolonu"na mənsub olan adamlar bu sərvətlərdən lazımınca istifadə etməyə, bu sərvətlər hesabına xalqın həyatının yaxşılaşdırılmasına imkan vermədilər. Onlar xalqın sərvətlərini talamağa başladılar. Beləliklə də, Azərbaycan xalqının müstəqilliklə bağlı bəzi gözləntiləri özünü doğrultmadı. Sosial rifahın yüksəldilməsinə nail olunmadı. Hakimiyyətdə vəzifələr tutmuş "5-ci kolon" təmsilçiləri vaxtilə Azərbaycanın müstəqilliyinin əleyhinə olan şəxslər olduqları üçün onlar bu müddətdə Azərbaycan cəmiyyətində müstəqilliyi gözdən salmaq xəttini yürüdüblər və müəyyən qədər də buna nail olublar. Bax, bu təəssüfləndirici haldır və uğursuzluqlar sırasına aid edilməlidir.

Müstəqillik dövründə ən əsas uğursuzluğu isə Azərbaycan Qarabağ məsələsində yaşadı-torpaqlarımız işğal olundu və hələ də azad edə bilməmişik. Amma təbii ki, bunun günahı müstəqillikdə deyil. Müstəqillik uğrunda mübarizədə çox böyük cəfa çəkmiş, çox böyük əziyyətlərə dözmüş, öz həyatlarını risk altına qoyan insanlara, istiqlalçı deputatlara lazımi qiymət verilmədi. Halbuki, onlar Azərbaycanın müstəqilliyinə səs verməklə faktiki olaraq özlərinin, yaxınlarının həyatlarını təhlükə altına qoymuşdular. Çünki SSR-i dağılmasaydı, bu insanların ən ağır şəkildə cəzalandırılacağı dünən də, bu gün də gün kimi aydındır".

H.Əzimov sonda vurğuladı ki, bütün bunlara baxmayaraq şəxsən özü və Azərbaycanın istiqlalına səs verən, bu yolda cəfalar çəkən digər insanlar etdikləri üçün hər hansı peşimançılıq çəkmirlər. Əksinə, fəxr edirlər ki, Azərbaycanın müstəqilliyi üçün vaxtında işlər görüblər: "İstiqlaliyyətin qazanılmasında müəyyən xidmətləri olan şəxslər kimi bundan qürur hissi duyuruq. Müstəqilliyimiz yalnız bizim deyil, bütün xalqın qürur mənbəyidir. Ümid edirəm ki, vaxt gələcək xalq milli müstəqil dövlətində müstəqilliyin verdiyi imkanların hamısından lazımınca istifadə edə biləcək və daha yüksək rifaha nail olacaqdır. Buna əminik".

❑ **E.SEYİDAĞA**

# Rusiya mediasından Azərbaycana İŞİD xəbərdarlığı: "Təhlükə artır..."

**Rusiya prezidenti Vladimir Putin MDB-nin ötən həftə Qazaxıstanda keçirilən sammitində İŞİD təhlükəsinə qarşı birgə fəaliyyətə çağırıb. Putin bildirib ki, hazırda İŞİD sıralarında keçmiş SSRİ respublikalarından 5 minə yaxın döyüşçü var və onlar geri qayıdaraq ciddi təhdidə çevrilə bilər.**



Xəttab əl-Azəri

Virtualaz.org saytı xəbər verir ki, lenta.ru bu mövzudan çıxış edərək "İslam Dövləti" sıralarında döyüşənlərin Cənubi Qafqaz respublikalarına, o cümlədən Azərbaycana qarşı nə dərəcədə təhdid olduğuna dair məqalə ilə çıxış edib. Məqalədə deyilir ki, Rusiyanın kosmik-hava qüvvələrinin Suriyada həyata keçirməkdə olduğu əməliyyat nəticəsində ekstremistlər bu ölkə ərazisində öz fəaliyyətlərinə düzəlişlər edirlər və onların bir hissəsi regionu tərk etməyə başlayıb. Onların Suriyanı tərk edərək hara üz tutduqları barədə hələ qəti marşrutlar yoxdur, lakin mümkün marşrutlar arasında Orta Asiya ilə yanaşı Cənubi Qafqaz respublikaları da var.

Məqalədə ardınca qeyd olunur ki, Gürcüstanın Pankisi dərəsi çeçen müharibəsi zamanı ekstremistlərin sığınacağına çevrilib, qonşu Azərbaycanda isə dini ekstremistlərin sayı sürətlə artır. "Regiona Suriyada döyüş təcrübəsi qazanmış yeni ekstremistlərin gəlişi sabitliyi içəridən sarsıda və Rusiyaya problemlər yarada bilər",- deyə nəşr yazır.

Azərbaycan vətəndaşları isə Suriyada daha çoxdur. Müxtəlif məlumatlara görə, onların sayı 400-dən 1000-ə qədərdir. Hətta Suriyada əlahiddə "Azərbaycan batalyonu" da var. Azərbaycanlı İŞİD-çilər arasında ən çox tanınanı Xəttab əl-Azəridir. O, internetdə Azərbaycan hakimiyyətinin ünvanına təhdidlərlə çıxış edib.

Məqalədə deyilir ki, fəal islamçıların çoxunun döyüşmək üçün İraqa və Suriyaya getməsinə baxmayaraq Gürcüstanda və Azərbaycanda sakitliyin yarandığını demək olmaz. Əksinə, hər iki ölkədə dini ekstremizmlə bağlı vəziyyət pisləşməkdə davam edir, islamçı qruplar genişlənir və göz önündə möhkəmlənir.

"Böyük ölçüdə bu, müsəlman Azərbaycanına aiddir. Lakin Gürcüstanda da tamamilə ciddi gərginlik ocaqları var"- deyə məqalədə vurğulanır. "Gürcüstanın Pankisi dərəsi Cənubi Qafqazda İŞİD-in əsas canlı qüvvə mənbəyidir. Azərbaycanda isə vəziyyət Gürcüstana nisbətən daha təhlükəlidir. Ayrı-ayrı gərginlik mənbələrinə malik Gürcüstandan fərqli olaraq Azərbaycanda dini ekstremizm baxımından daha münbit şərait var, bu da bütün ölkəni əhatə edən irimiqyaslı problemlərə gətirib çıxara bilər"- deyə Rusiya internet nəşri yazır.

Yazıda daha sonra bildirilir ki, son illərdə Bakıda və Sumqayıtda da vəhhabilərin sayı sürətlə artıb. Cümə namazlarına bütün qadağalara baxmayaraq minlərlə vəhhabi toplaşır. Özü də vəhhabiliyə meyl edənlər təkcə sünnilər deyil, həm də şiə ailələrindən çıxanlardır. Hüquq-mühafizə orqanları müntəzəm olaraq radikallara qarşı reydlər keçirir, onların məscidlərini bağlayır, bu da vəziyyətin daha da gərginləşməsinə və radikalların artmasına səbəb olur. Milli Təhlükəsizlik Nazirliyi son illərdə Suriyada döyüşərə qatılmış onlarla radikalı həbs edib. Bildirilir ki, Yaxın Şərqdə sünni-şiə qarşıdurmasının dərinləşməsi də Azərbaycan üçün təhlükədir.

"Doğrudur, Azərbaycan terror qruplaşmaların tərkibində döyüşlərin ölkəyə geri qayıtmasını əngəlləmək üçün tədbirlər görür, belələri yaxalananda 20 il həbsə məhkum edilə bilər. Lakin İŞİD bu regionu hərbi ekspansiya obyekti kimi deyil, canlı qüvvə mənbəyi kimi nəzərdən keçirir. Yəni Suriyadan qayıdanlarla yanaşı ölkə daxilindəki İŞİD tərəfdarları da ciddi təhlükə mənbəyidir".

# Kütləvi stress...



**Hüseynbala SƏLİMOV**

Əgər cəmiyyət vəziyyətinin fərqində deyilsə, bu vəziyyətdən çıxış yolu ilə bağlı axtarışların olmaması və yaxud da olduqca seyrək olması elə də təəccüblü görünməməlidir: "kütləvi xoşbəxtlik" çağlarında bədbəxtləri görməmək və onları duymamaq adi haldır. Bəlkə də burada xoşbəxtlik sözünü bir qədər ehtiyatla yazmaq lazımdır, çünki insanlar arasında təlaş da duyulur...

Amma bu təlaş daha çox ehtimal olunan iqtisadi böhranla bağlıdır - hökumətin vədlərinə rəğmən insanlar bazarlarda və dükanlarda hər gün sürprizlə qarşılaşırlar. Bu sürprizlər hökumətin proqnozlarından və izahlarından o qədər uzaq olurlar ki, insanları bir az əvvəldə dediyimiz kimi, təlaş bürüyür...

İnsan hər gün yağın və ya çörəyin qiymətinə diqqət kəsiləndə onu siyasi azadlıqlar çox az düşündürür. Ona görə ki, acların birinci qayğısı maddiyyətlə daha çox bağlı olur, nəinki mənəviyyatla...

Yazıya ideoloji sözünü, məsələsini qatmaq istərdik. Təəssüf ki, 24 il ərzində ölkədə ideoloji differensasiya getmədi. Ona görə də kimin hansı ideoloji cinaha aid olduğunu demək çox çətindir. İndi insanlar sosial vəziyyətlərinə görə daha çox differensasiya olunublar, nəinki ideoloji-siyasi baxışlarına görə. Burada o qədər dolaşıqlıq yaranıb ki, adət etdiyimiz "bazis-üstqurum" məsələsi da özünü doğrultmur - azərbaycanlılar hələ də daha çox apolitik cəmiyyət olaraq qalır...

Biz öz dünyagörüşümüzə görə daha çox fərdiyyətçi insanlarıq. Mülkiyyətə çox önəm veririk. Bir az da konsevativik, potensial dəyişikliklərə çox ehtiyatla yanaşırıq. Bunları sadalayanda adam "Biz neokonsevatorlarıq" demək istəyir, di gəl, bacarmır, çünki biz bir çox dəyərləri məhz özümüzə tətbiqən qəbul edir və buna önəm veririk- bir fərd kimi özümüzü sevirik, amma başqa birisində fərd görmürük, mülkiyyətə böyük inam veririk, amma bütövlükdə mülkiyyət institutuna saygımız yoxdur. Bir sözlə, yaman eqoistik...

Bəlkə də bu eqoizm bizi digərlərilə birgələşməyə qoymur. Bəlkə də elə bunun nəticəsidir ki, cəmiyyətdəki ideoloji ovqat sosial-siyasi qrupların yaranmasına təkan vermir...

Faktiki olaraq əsl siyasi partiyaları görmək bizə qismət olmadı. Partiyalar digər ölkələrdə olduğu kimi ciddi iqtisadi və siyasi məzmun ala bilmədi. Onlar faktiki olaraq dünyasını erkən dəyişən uşaqlara bənzədilər...

Amma burada bizim siyasi partiyalar haqqında rekviem yazmaq fikrimiz yoxdur. Ən azı ona görə ki, çox yazmışıq bu haqda. Bir daha bu mövzuya üz tutaraq demək olar ki, bir tərəfdən funksionerlərin eqoizmi, o biri tərəfdən də hakimiyyətin təzyiqləri siyasi partiyaları heç etdi...

Yaxın vaxtlarda onların dirçələ bilməsinə elə bir ümid yoxdur, çünki o siyasi və iqtisadi sistem ki, ölkədə bərqərar olub onun çərçivəsində güclü siyasi partiyalar ola bilməz-bunun adı avtoritarizmdi, bu halda siyasi həyat tamamilə hakimiyyətin nəzarətində olurlar...

Niqsbi iqtisadi azadlıqlar həmişə olub. İndi də ölkədə niqsbi iqtisadi azadlıqlar var. İnsanlar da bununla kifayətlənirlər. Böyük əksəriyyət dəyişiklik istəmir və insanlara elə gəlir ki, belə daha yaxşıdır. Onlar ona görə belə düşünürlər ki, bu sistemlə "dil" tapa biliblər, onların davranışını proqnozlaşdırmağı bacarırlar...

Qalan bütün ssenarilər və variantlar isə özündə qeyri - müəyyənlik və mücərrədlik vəd edir. İnsanlar isə bunu sevmirlər...

Maraqlıdır ki, bu, təkcə bizdə belə deyil. Rusiyada da təhlilçilər cəmiyyətin azadlıq ideyasından çox uzaqlaşdığının fərqindədirlər. Rusiyalılar V.Putini də əvəzedilməz hesab edir və ona böyük siyasi dəstək verirlər. Təhlilçilər belə bir halı "kollektiv stress" adlandırır, çünki o, gələcək qarşısında, ehtimal olunan dəyişikliklər qarşısındakı qorxudan yaranır...

Belə bir "kollektiv stress" Azərbaycanda da var. "Başqa kim var?" sualı ölkəni üzdü, onu sərt avtoritar bir rejimə sürüklədi. İnsanlar "Bunların heç olmasa, rüşvət istədiyini bilirik, başqalarını, ümumiyyətlə, başa düşümürük!" deyərək özlərini avtoritar sistemə təslim etdilər...

İnsan nədən daha tez imtina edə bilirsə, deməli onun üçün bu, ən az önəm və əhəmiyyət kəsb edir. Azərbaycanlılar da siyasi azadlıqlara önəm vermədilər və bunu demək heç də böyük yanlışlıq deyil, ən azı ona görə ki, bu illər ərzində hakimiyyət böyük, hiss olunacaq müqavimətlə qarşılaşmadan bütün siyasi azadlıqları heç etdi...

Deməli, azadlıq insanlar üçün dəyər deyildi, olsaydı onda azadlığı da evlərini, mülkiyyətlərini və ailələrini qoruyan kimi qoruyardılar...

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015



# Maliyyə professorundan prezidentə inqilab kimi layihə təklifi - sənəd

(Əvvəli səh. 7-də)

3. İqtisadi sistem elmi texniki tərəqqinin ən son nailiyyətlərinin xalq təsərrüfatının bütün sahələrinə genişmiqyaslı tətbiqi əsasında qurulsun, ölkənin bütün milli iqtisadiyyatı innovativ iqtisadiyyat relsinə keçirilsin və bu ali vəzifənin yerinə yetirilməsi üçün:

- prezidentin birbaşa nəzarəti və sədrliyi ilə "Texnoloji strategiya" Şurası yaradılsın və ölkənin elmi-texniki və texnoloji inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi bu şuraya həvalə olunsun;

- Elm və texnologiyaların sürətli inkişafı fasiləsiz maliyyə mənbələri ilə təmin olunsun, elm və texnologiyaların inkişafına sərf olunan vəsaitlərin ÜDM-də xüsusi çəkisi inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılsın, elmin maliyyələşdirilməsi sistemi ciddi surətdə təkmilləşdirilsin, elmin maliyyələşdirilməsində bərabərlik prinsipindən qrant sisteminə keçid həyata keçirilsin və bütün elmi müəssisə və təşkilatların fəaliyyəti kommersiya prinsipləri əsasında qurulsun;

- Elm və texnologiyaların istehsala tətbiqi prosesi sürətləndirilsin, iqtisadi islahatlar "ideya-tətbiq" müddətinin əhəmiyyətli surətdə aşağı salınmasına yönəldilsin, ölkəyə intellektual beyin axını hər cür üsullarla stimullaşdırılsın, dünyanın elmi cəhətdən ən inkişaf etmiş ölkələri ilə əməkdaşlıq sistemi qurulsun, ortaq fondlar, tədqiqat qrupları, elmi-tədqiqat kollektivləri yaradılması yolu ilə texnoloji inkişaf, fəza texnologiyaları, informasiya texnologiyaları, materialşünaslıq, fəza iqtisadiyyatı, fəza mühəndisliyi, yüksək texnologiyalar elmlərinin tədqiqatı, böyük elmi məktəblərdən məşhur alimlərin ölkəyə dəvət olunması prosesi genişləndirilsin.

4. Ölkənin olduqca əlverişli coğrafi məkanını nəzərə alaraq respublikanın bütöv iqtisadiyyatını tranzit iqtisadiyyatı prinsiplərinə uyğun qurmaq və bu əlverişli vəziyyətdən maksimum bəhrələnmək məqsədilə:

- İqtisadi mexanizm tranzit - ötürmə iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılsın, şimal-cənub, qərb-şərq nəqliyyat dəhlizləri arasında mal və xidmətlərin birbaşa və həmçinin yenidən işlənmə yolu ilə ölkə ərazisindən müştərilər üçün sadə, ucuz və əlverişli qaydada ötürülməsi üçün qonşu uyğun ölkələrlə müqayisədə rəqabətə davamlı mexanizm qurulsun, tranzit mallar və xidmətlərin ötürülməsinə bütün vergilər ləğv edilsin, sadə və maneəsiz ötürmə sistemi qurulsun, tranzit mal və xidmətlərin gömrük qapılarından sadələşdirilmiş və heç bir vergiyə cəlb olunmadan giriş və çıxış, həmçinin işlənməsi şərti ilə giriş və çıxışı təlimatları hazırlansın və tətbiqi təmin olunsun;

- Mal və xidmətlərin tranzit olaraq vaxt etibarı ilə tez və məsrəf etibarı ilə qonşu ölkələrlə müqayisədə daha ucuz xərclə ötürülməsi üçün infrastruktur sistemi yaradılsın, yeni liman və aeroportların, rabitə və internet ötürücü qurğularının, tranzit gömrük anbarlarının və soyuducu sistemlərinin qurulması təmin olunsun və bütün gömrük qapılarında sərbəst iqtisadi zonalar yaradılması məsələsi araşdırılsın;

- Ölkənin şimal-cənub, şərq-qərb nəqliyyat və gömrük qapılarını birləşdirən yeni daxili ötürücü infrastruktur (ödəməli avtoban yolları, sürətli dəmir yolları, rabitə xətləri) qurulsun, həmçinin bu yolları beynəlxalq nəqliyyat dəhlizləri ilə birləşdirə biləcək beynəlxalq layihələrdə ölkənin iştirakı təmin olunsun;

- Gömrükləmə və tranzit ötürmə sistemində çalışan bütün kadrların attestasiyası keçirilsin, bu sahədə kompleks antiinhisar və antikorrupsiya tədbirləri həyata keçirilsin, bu vəzifələrə yalnız Azərbaycan Respublikasını layiqincə təmsil edə biləcək kadrlar seçilsin və tədriclə bu vəzifənin Asan Xidmətə verilməsinə başlanılsın.

Azərbaycan Respublikası Nazirlər Kabinetinə və müvafiq dövlət quruluşlarına tapşırılsın:

1. Bu ilin noyabr ayının sonuna qədər bütün qoyulan vəzifələrin yerinə yetirilməsi üzrə konkret təkliflər, islahatların dərinləşdirilməsi mexanizmini, qanun, qərar, əsasnamə və təlimatların layihələrini hazırlayıb prezidentin aparatına təqdim etsinlər;

2. Bu ilin dekabrı ərzində bütün hazırlıq işləri tamamlansın və 2016-cı ilin yanvar ayının birindən etibarən mexanizmin tətbiqinə başlansın.

❑ **Professor Saleh MƏMMƏDOV**

---

# "Deyirdi, ana, gün gələcək, mənimlə fəxr edəcəksən"

## Tərtərdə şəhid olan borçalılı əsgərin ata-anası onun adının əbədiləşdirilməsini xahiş edir

**Gürcüstana səfər etmişkən Tiflisin təqribən 70 km-liyindəki Zol Günəş (Zvel Guneşi) kəndinə baş çəkməyi özümüzə borc bildik. Bu ilin sentyabrında Ermənistan tərəfdən açılan atəş nəticəsində şəhid olan əsgər Məmmədov Elşən Vaqif oğlu bu torpaqda uyuyur deyə...**

Qarabağ həqiqətlərinin təbliği üçün Gürcüstana səfər edən Qarabağ Azadlıq Təşkilatının (QAT) nümayəndə heyətinin üzvləri ilə birlikdə Tərtər bölgəsində şəhid olan Elşən qardaşımızın ata ocağı kəndin yuxarı başında yerləşir. Bizi matəm libasında olan xanımlar qarşılayır. Deyirlər ki, şəhidin atası oğlunun məzarına baş çəkməyə gedib. Həm də 40 mərasiminədək məzarın üstü götürülməlidir.

Elşənin anası Aybəniz Məmmədova nə qədər çətin də olsa, danışır: "Elşən İqtisad Universitetini bitirib. 2014-cü ilin oktyabrında hərbi xidmətə getdi. Gürcüstanda doğulsa da, Elşən 1-ci sinfə gedəndə, 1992-ci ildə Azərbaycana getdik, o vaxtdan orda yaşadıq. Ona görə də Elşən Azərbaycan vətəndaşı olaraq hərbi xidmətə yollandı. Özü də doğum haqqında şəhadətnaməsi Gürcüstanda verildiyi üçün qarışıqlıq yaranmışdı, əvvəl hərbi xidmətə çağırılacaq şəxslərin siyahısında adı çıxmamışdı. Bu da Elşəni çox narahat edirdi. Ona görə də özü könüllü ərizə yazdı ki, mən 4 il universitet oxumuşam, dövlət işində çalışmaq arzum var, ona görə də hərbi xidmətə getmək istəyirəm. Əsgərliyin ilk 3 ayını Gəncədə qaldı, sonra Tərtərə apardılar. Xidmətini başa vurmasına 5 gün qalmışdı bu xəbər gəldi..."

Gözüyaşlı, boynubükük anaya təskinlik üçün söz tapmaq da çətin olur belə anlarda. Ancaq yenə hər necə olmasa, QAT-ın rəhbər şəxsləri - sədr müavinləri Fəridə Əsgərova və İlqar Əli Vətən uğrunda şəhidlik zirvəsi qazanan Elşənin anasına təskinlik verirlər. Davam edir: "Ölümündən bir gün sonra mesajlaşdıq. Dedi ki, 1 günlük posta çıxmalıyam, əsgər yoldaşım gedib bir az rahatlansın, mən oktyabrın 1-i gəlməliyəm. Çox dostcanlı uşaq idi, elə dostuna görə həyatını qurban verdi. May ayında məzuniyyətə gəlmişdi, dedi yerim çox rahatdır, narahat olmayın. Qismət, yazısı yazılıbmış..."

A.Məmmədova deyir ki, Binəqədidə, Rəsulzadə qəsəbəsində yaşayırlar. Elşənin kiçik qardaşı Rövşən də İqtisad Universitetində təhsil alır. Anası deyir ki, oğlu təhsilini başa vurandan sonra hərbi xidmətə yollanacağını bildirib: "Rövşən də hərbi xidmətə çağrılacaq. Dedim səni getməyə qoymaram. Qayıtdı ki, yox, mən əsgərlikdən qalmaram, gedəcəyəm".

Əlavə edir: "Elşən həmişə deyirdi ki, əsgər getmək də var, şəhid getmək də. Deyirdim bu nə sözdür, mən yazığam. Deyirdi, ana, elə bir gün gələcək, sən mənimlə fəxr edəcəksəksən. Dediyi kimi də oldu, mən oğlumla fəxr edirəm".

Deyir ki, oğlunun qara xəbərini səhərə yaxın saat 5-in yarısında atasına zəng edib deyiblər. Atası deyib Tərtərə gedirəm, oğlumu özüm gətirəcəyəm. Ancaq biz Gəncəyə çatanda rastlaşdıq, hərbçi yoldaşları gətirirdi..."

A.Məmmədova bildirdi ki, Elşən qeydiyyatda olduğu Binəqədi RHK-dan hərbi xidmətə çağırıldığı halda, yas mərasiminə Binəqədi İcra Hakimiyyətindən də gələn olmayıb: "Oğlum Bakıdadır, deyir heç Binəqədidəki evimizə də gedən olmayıb". Dövlətin şəhid ailəsinə ayırdığı vəsaitin ödənilib-ödənilmədiyi ilə maraqlandıq, anası dedi ki, hələ ödənilməyib: "Heç bu barədə maraqlanmamışıq da. Başımız yasa qarışıb".

Şəhid anası Azərbaycan gömrüyündən narazılığını da çatdırdı: "Təsəvvür edin, meyit qabağımda gəlirəm, uşağımın pasportunu istəyirlər. Dedim balamın meyitini aparıram, siz məndən pasport istəyirsiniz? Oğlum 5 gündən sonra evə gələcəkdi. Azərbaycanda münasibət budurmu? Açığı, bu, məni çox yandırdı. Ancaq gürcü gömrükçü heç bir sənəd istəmədi. Meyiti görən kimi dedi "keçin"".







## Aybəniz Məmmədova: "Zvel Guneşi məktəbinə oğlumun adının verilməsini istəyirik"

Ailəyə yardım olub-olmadığı ilə də maraqlandıq. A.Məmmədova: "Cənazənin gətirilməsi xərclərini də özümüz çəkdik. Heç atası yaxın qoymazdı. Hətta qənd, daha nə gətiriblər, hamısı kisədə durur. Hərbi hissədən nömrə veriblər ki, nə lazımdırsa, zəng edin. Heç maraqlanan yoxdur ki, axı sizin uşaq şəhid olub. Düzdür, Azərbaycan səfirliyindən gəldilər, ancaq başqa maraqlanan olmadı".

İndi ailənin əsas istəyi onlar üçün təskinlik ola biləcək addımın atılmasıdır. İstəyirlər ki, şəhidin adı əbədiləşdirilsin: "Gürcüstandan dəfn idarəsindən gəlmişdilər. Dedilər Elşənin 40-na yaxın da xəbər edərsiniz, gələcəyik. Noyabrın 4-də 40-dır.

Kənd məktəbində işləyən Elşənin babası İmran müəllim də nəvəsinin adının məktəbə verilməsini istəyir. Dedi ki, nəvəsinin şəhid olmasından bəri hələ də özünə gəlməyib: "Adı əbədiləşdirilsə, heç olmasa bizə təskinlik olar". Müəllimlər imza toplamaq və gürcü hakimiyyətinə müraciət etmək istəyirlər.

Söhbətin bu məqamında Elşənin atası Vaqif Məmmədov da gəlib çıxdı. Aybəniz xanım Azərbaycan vətəndaşı olsa da, Elşənin atası Vaqif müəllim Gürcüstan vətəndaşıdır: "90 gündən artıq qalmağa qanun icazə vermir, əks təqdirdə cərimə olunuruq. Anam burda yaşayır. Ailəm də Bakıda olur, çox qalmaq olmur. Özüm işsizəm, ancaq kənddə əkin-bişçinlə məşğulam. Anam təqaüdçüdür, tək qoyub harasa getmək olmur".

Söhbət əsnasında dedi ki, Gürcüstan hakimiyyət dairələrindən yasa heç kəs gəlməyib: "Sanki belə bir hadisə olmayıb. Azərbaycan səfirliyinin nümayəndələri ilə isə şəhidin adının əbədiləşdirilməsi ilə bağlı söhbət etmişik. Dedilər imkan daxilində biz nəsə etməyə çalışacağıq. Səfirliyin əməkdaşı polkovnik Xəzər Abbasov dedi biz də oğlumun adının əbədiləşdirilməsinə çalışarıq və bir daha görüşərik. Ancaq dedilər Azərbaycanın köməyi dəyə bilər bu məsələdə. Uşaq əlaçı olub, Binəqədidə 115 saylı orta məktəbi bitirib. Elə o məktəb də şəhidin adınadır. Zvel Guneşi məktəbinə oğlumun adının verilməsini istəyirik. Amma deyirlər uşaq burda oxumayıb, burda yaşamayıb. Ona görə də onun adının məktəbə verilməsi düzgün olmaz. Amma oğlum burda doğulub, məktəbə gedənə kimi burda yaşamışıq. Axırda da bu dədə-baba torpağımız da onun əbədi məkanı oldu. Ağır dərddir, amma yenə də fəxr edirəm ki, Elşən Azərbaycan uğrunda şəhid oldu..."

***P.S.** Yazının ərsəyə gəlməsində göstərdiyi köməyə görə Gürcüstandakı fəal soydaşımız, "Qarapapaq" Xeyriyyə Cəmiyyətinin sədri Elşad Əliyevə təşəkkür edirik.*

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**23 ildir gedən sülh danışıqları hələ ki, heç bir ciddi nəticəyə gətirməyib. Bu nəticəsizlik ərazisinin 20%-i işğal altında olan Azərbaycanı sövq-təbii öz ordusunu daim gücləndirmək zorunda qoyur - özü də hər hansı silah kvotasına məhəl qoymadan. Çünki BMT Nizamnaməsi üzv ölkələrə öz ərazi bütövlüyünü bərpa eləmək üçün hərbi üsulu da məqbul sayır. Ölkəmizə isə bu hüququ üstəlik, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 822, 853, 874 və 884 saylı qətnamələri verir.**



# Qarabağ ixtilafının həllini tormozlayan əsas amil

## "Azərbaycan ordusu torpaqları azad etməyə hazırdır" - Müdafiə Nazirinin bu xəbərdarlığı tək işğalçı qüvvələrə ünvanlanmayıb; **ATƏT missiyasının sabiq başçısı:** "Bu gün Ermənistan özünəqəsdə - dövlət intiharına doğru gedir..."

Lakin Azərbaycanın öz iqtisadi potensialının verdiyi imkanlar çərçivəsində Rusiya, İsrail, Belarus, Türkiyə və digər dövlətlərdən ən müasir döyüş maşınları və hərbi texnologiyalar almaqda davam eləməsi heç də o demək deyil ki, yeni Qarabağ savaşı günü sabah başlaya bilər - bunun üçün aydındır ki, yetərli geosiyasi şərtlər də lazımdır - ancaq ən azından bu, düşmənə ciddi bir xəbərdarlıqdır ki, haqq savaşı çox uzaqda da deyil və təcavüzkar Azərbaycanın əzəli ərazilərində əbədi oturmağı ağlına gətirməsin. Güclü müdafiə və müharibə qabiliyyəti təbii ki, Azərbaycana həm də danışıqlar masası arxasında daha uğurlu mövqeyə malik olmaq, güclü Qarabağ diplomatiyası aparmaq üçün gərəkdir.

"Azərbaycan ordusu öz torpaqlarını işğaldan azad eləməyə tam hazırdır". Bu sözləri müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin şəxsi heyət üzrə rəhbər zabit heyətinin nümayəndələri ilə son görüşü zamanı bildirib. Nazir son vaxtlar dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən, Silahlı Qüvvələrdə görülən irimiqyaslı quruculuq işlərindən danışıb.

Torpaqlarımızın işğaldan azad edilməsinin ordunun ən əsas vəzifəsi olduğunu vurğulayan nazirin sözlərinə görə, ordumuz qarşıya qoyulan bu müqəddəs borcunu yerinə yetirməyə tam hazır və qadirdir. "Müasir dövrdə ölkənin hərbi potensialının artırılması üçün atılan addımlar göz qabağındadır" - deyən Zakir Həsənov onu da qeyd edib ki, Azərbaycan ordusu ən müasir silah-sursat və hərbi texnika ilə təmin edilib və bu yöndə işlər davam etdiriləcək.

***

Hələliksə problemin dinc yolla həll imkanlarına kövrək də olsa ümidlər qalır. Bir çox beynəlxalq ekspertlər məhz bu imkandan istifadə edib, konfliktin həllini tezləşdirməyi təklif edirlər.

"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün kəskin şəkildə çatışmayan əsas şey - ədalətdir". Bu sözləri "Vestnik Kavkaza" nəşrinə müsahibəsində Xəzər Strateji İnstitutunun Ali Məsləhət Şurasının üzvü, ATƏT-in Gürcüstandakı birinci missiyasının başçısı Xəlil Akınca Moskvadakı "Rusiya və Türkiyə" beynəlxalq təhlükəsizlik konfarnsı çərçivəsində bildirib.



Onun sözlərinə görə, Azərbaycanın bir hissəsinin işğal edilməsi və 1 milyon qaçqının yaranması ilə barışmaq olmaz: "Belə davam edərsə, Qafqazda sabitlik gözləməyə dəyməyəcək. Azərbaycana indikindən daha ədalətli yanaşmaq lazımdır. Dağlıq Qarabağ problemi həll olunmalıdır. Digər yandan, işğalçı ölkə də ziyan çəkir: əgər məsələ həllini tapmasa, Ermənistan sadəcə, indiki kimi yoxsulluğa məhkum olacaq. Təsəvvür edin ki, Ermənistan özü konfliktin nizamlanmasına gedəcək, o zaman ermənilər rifaha qovuşacaq, azərbaycanlılar üçün də yaxşı olacaq, gürcülər də təminat içində olacaqlar".

Bu xüsusda politoloq Qarabağ münaqişəsini sülh və ümumrifah qapısında asılan qıfıla bənzədib, hansını ki, onun əminliyinə görə, açmaq zamanı çatıb. "Cənubi Qafqazda ərazi iddiaları insanlara əmin-amanlıq içində yaşamağa imkan vermir. Bu gün bu ambisiyaların yerini ağıl, müdriklik tutmalıdır. Bu gün Ermənistan özünəqəsdə - dövlət intiharına doğru gedir. Hesab edirəm ki, Rusiya bu problemin həlli üçün öz səylərini artırmalıdır. Çünki beynəlxalq institutlar və təşkilatlar onu yoluna qoya bilmir. Əgər Rusiya Ermənistana təsirindən istifadə eləsə, problem həll olunacaq", - deyə təhlilçi vurğulayıb.

Ekspert beynəlxalq ədalət prinsipinin real təzahürü kimi bir neçə gün öncə Avropa İnsan Hüquqları Məhkəməsinin türkiyəli siyasətçi Doğu Perinçəkin işi ilə bağlı çıxardığı qərarı göstərib - hansı qərarda ki, Osmanlı İmperiyasında 1915-ci ildə baş vermiş hadisələr ermənilərin dediyi kimi "tarixi soyqırım" faktı olaraq deyil, yalnız subyektiv fikir kimi qiymətləndirilib, o üzdən də "soyqırımın" inkarına görə cəza söz azadlığının məhdudlaşdırılması halı kimi təsbit edilib.

Bununla əlaqədar ATƏT missiyasının sabiq başçısı ərazisinin 20%-i Ermənistanın işğalı altında qalmaqda olan Azərbaycana bir daha ədalətli münasibət sərgiləməyə çağırıb. Ekspert həmçinin, qeyd edib ki, Qafqaz vahid qurum kimidir və orada hər hansı lokal konflikt bütün regionun durumuna qaçılmaz şəkildə təsir edir. "Cənubi və Şimali Qafqaz vahid orqanizmdir və bu regionlardan birində baş verənlər digərinə də təsir edir. Sözsüz ki, Güney Qafqazda problemlərin nizamlanması Şimali Qafqazda da təhlükəsizliyin təmin edilməsinə pozitiv təsirini göstərəcək", - o əlavə edib.

***

Ancaq problem də ondadır ki, ən çox məhz Rusiya bölgədə konfliktlərin həllinə, deməli həm də real təhlükəsizliyin təmin olunmasına maraq göstərmir, maneə yaradır, məxsusən də Qarabağ ixtilafına, Azərbaycana ədalətli münasibət sərgiləmir. Kreml əlində bənzərsiz rıçaqlar ola-ola, ümumiyyətlə, münaqişənin həllində maraqlı deyil, çünki Qarabağ məsələsi hesabına hələ uzun müddət Güney Qafqazın iki ölkəsini, əslində elə bütövlükdə Güney Qafqazı öz nəzarətində saxlamaq niyyəti güdür.

Bəzi yerli və əcnəbi ekspertlərə görə, Qarabağda genişmiqyaslı hərbi əməliyyatların qızışması Moskvanın da marağında deyil. Ola bilər, lakin Rusiya müharibə riskini özündə daşıyan hazırkı status-kvonu dəyişməyə də can atmır. Başqa sözlə, Qarabağ ixtilafının tarixin arxivinə verilməsi üçün ilk növbədə Kremlin ona yanaşması dəyişməlidir - ədalətli istiqamətə, təbii ki. Bunun üçün isə rəsmi Moskvanın siyasi iradəsi lazımdır.




# "Qorxuram münaqişə yenidən alovlansın"

**Pol Qobl:** "Atəşkəsin mütəmadi pozulması müharibə ehtimalını artırır..."

**"Qorxuram ki, Azərbaycan və Ermənistan arasındakı donmuş münaqişə yenidən alovlansın". Bunu salamnews-a açıqlamasında amerikalı siyasi şərhçi Pol Qobl deyib.**

Onun sözlərinə görə, cəbhə xəttində gərginliyin artması müharibə riskini də artırır: "Tərəflər elə hesab edir ki, bu müddətdə gərginliyi artırmaqla diqqəti cəlb edəcək və dəstək əldə edəcəklər. Amma indiki zamanda bu, böyük riskdir. Belə ki, atəşkəsin mütəmadi pozulması halları qanlı müharibənin başlanmaq ehtimalını çoxaldır".

Bir çox dövlət universitetləri və beynəlxalq təşkilatlar üçün məsləhətçi kimi fəaliyyət göstərən ekspert Piter Teys isə mövzu ilə əlaqəli bunları deyib: "Dağlıq Qarabağ uzun sürən və çoxplanlı münaqişədir. Amma çox təəssüf ki, Qərb ölkələri (ABŞ, Avropa İttifaqı) Krımın ilhaqına görə Rusiyaya sanksiyalar tətbiq etdilər, amma Ermənistanın Dağlıq Qarabağı və onun ətrafındakı 7 ərazini işğal etməsinə isə göz yumdular, bitərəf və tərəddüdlü mövqe nümayiş etdirdilər".

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015





# Ölkədə "sürünən bahalaşma"nın yeni dalğası başlayıb

## Yeni qiymət artımının da süni olduğu bildirilir; satıcılar topdansatış işbazlarını günahlandırır; iqtisadçı ekspert isə...

**Son günlər bir sıra ərzaq məhsullarının qiymətində artım müşahidə edilməkdədir. Bir neçə marketdə apardığımız müşahidələr zamanı məlum oldu ki, elə ərzaq məhsulları var ki, onların qiymətində artım nəzərə çarpacaq dərəcədə hiss edilir. Ancaq digər ərzaq məhsullarında artım 3-5 qəpik olduğu üçün bir elə diqqət çəkmir.**

Ümumilikdə isə zəruri ərzaq məhsullarının qiymətində 10-60 qəpik arası artım var. Məsələn, bir neçə gün əvvələ qədər 8 qəpiyə satılan yumurta indi 18 qəpiyə satılır. Çayların qiymətində də növündən asılı olaraq 3-10 qəpik arası bahalaşma vardı. Həmçinin düyü, qaymaq, qəndin qiymətində də cüzi də olsa artım müşahidə edilirdi. Görünür, işbazlar ərzaq məhsullarının qiymətini insanları öyrəşdirə-öyrəşdirə qəpik-qəpik artırırlar.

Satıcılardan bahalaşmanın səbəbini soruşduqda onlar ərzaqları yerindən baha aldıqlarını dedilər. Satıcı Elman Yusifov bildirdi ki, qiymətlər yerində, yəni topdan satış mərkəzində də bahadır: "Biz baha aldığımız üçün baha satırıq. Alıcı daha çox yumurtanın bahalaşmasına etiraz edir. Gəlib bizə irad tuturlar ki, qiymətlər niyə belədir. Biz topdan satış mərkəzindən 10-15 qəpiyə aldığımız yumurtanı necə 8 qəpiyə sataq?!"

Alıcı Həqiqət Məmmədova da bahalıqdan gileylənirdi: "Ərzaqların qiymətini nə vaxta kimi bahalaşdırmağı düşünürlər? İnsanların aldıqları məvacib bir aylıq ərzağına çatmır. Yumurta kasıbın istifadə etdiyi ən zəruri ərzaqdı. Barı onun qiymətini artırmazdılar".

Doğrudan da əsas sual yumurtalarla bağlı ortaya çıxır. Necə ola bilər ki, ildə 1 milyarddan çox yumurta istehsal edən ölkədə bu məhsulun qiyməti baha olsun? Hazırda ölkədə ildə 1 milyard 300 milyon ədəd yumurta istehsal edilir. Ölkə əhalisinin yumurtaya tələbatı isə 2 milyard 600 milyon ədəddir.

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Vahid Məhərrəmov mətbuata açıqlamasında yumurtanın maya dəyərinin 7-8 qəpikdən çox olmadığını bildirmişdi. Ekspertin sözlərinə görə, ölkəyə tələbata uyğun yumurta gətirilərsə, qiymətlər aşağı salına bilər: "Mövsümlə əlaqədar istehsal zəifləsə də hazırda bir yumurtanın maya dəyəri 7-8 qəpikdən çox deyil. Təəssüf ki, bu sahədə rəqabət yoxdur. Buna görə də yumurtanın qiymətini istənilən vaxt artırıb-azaldırlar. Hazırda Ukraynada yumurtanın qiyməti 5 qəpikdir. Rusiyada 6, Gürcüstanda 6-7 qəpik arasında dəyişir. Azərbaycanda isə sahibkarlar sövdələşməyə gedirlər. Ölkəyə digər sahibkarların yumurta gətirməsinə imkan verilmir. Yumurta istehsalı, satışı bir dairədən idarə olunduğu üçün istənilən zaman qiymətləri dəyişə bilirlər".

İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a bahalaşmanın səbəbinin sırf inhisarçılıqla bağlı olduğunu söylədi: "Normal qayda-qanun, rəqabət olan ölkələrdə süni qiymət artımı anlayışı ümumiyyətlə, olmur. Bu sovet dövründən qalma bir yanaşmadır. Süni qiymət artımı, alverçilər terminləri sovetlərdən qalmadır. Sovet dövrünün dağılmasından 25 ildən çox vaxt keçməsinə baxmayaraq təəssüflər olsun ki, hələ də Azərbaycanda və postsovet məkanın bəzi ölkələrində bu terminologiyalardan istifadə olunur. Əgər normal rəqabət mühiti olsa, normal şəkildə bazar iqtisadiyyatının qanunları, tələb və təklif qanunları, rəqabət qanunları işləsə süni qiymət artımı mümkün deyil. Azərbaycanda süni qiymət artımının yeganə səbəbi inhisarçılıqdır. Yəni inhisarçılıq olan yerdə mütləq dar çərçivədə insanlar bazara gələn mallara nəzarət edir və o nəzarətin nəticəsində qiymətləri özləri bazara diktə edirlər. Bu anlamda Azərbaycanda, təbii ki, süni qiymət artımı var. Amma bu, sovetlərdən qalma bir yanaşma deyil, inhisarçılıqla bağlı olan bir məsələdir. Əgər bu 24 illik müstəqillik dövründə rəqabət mühiti yaransaydı, bazar qaydalarının tamamı tətbiq olunsaydı, ədalətli bir sistem olsaydı təbii ki, süni qiymət artımı olmazdı. Bazarda da tələb və təklifin yaratdığı məsələlər qiymətə təsir göstərərdi".

Bu cür süni bahalaşmanın qarşısını almaq üçün normal rəqabət mühitinin yaradılmasının vacib olduğunu deyən ekspert illərdir bu məsələ qaldırılsa da bir nəticəsi olmadığını dedi: "Bu barədə dövlət başçısından tutmuş, nazirlərə qədər illərdir dəfələrlə bu məsələ qaldırılıb. Son iclasda da inhisarçılıqla, korrupsiya ilə bağlı məsələlər qaldırıldı, gündəmə gəldi. Amma təəssüf ki, bu illər ərzində ciddi addımlar atılmayıb. Azərbaycanda nə rəqabət məcəlləsi qəbul olunub, nə dənormal məhkəmə sistemi qurulub. Bəlkə də ilk baxışdan bir aidiyyəti olmasa da, inhisarçılıqla mübarizədə mülkiyyət toxunulmazlığı məsələlərinin önə çıxmasında ədalətli məhkəmə sisteminin olması çox vacibdir ki, insanların hüququ, rəqabət qaydaları pozularkən insanlar məhkəmə yolu ilə öz hüquqlarını bərpa edə bilsinlər. Yeni investorlar üçün də bu vacibdir. Ədalətli məhkəmə sistemi olan ölkələrdə investorlar aktivlik göstərirlər. Azərbaycanda bütün bu məsələlər illərdir həll olunmayıb deyə, inhisarçılıq çox yüksək səviyyədə sistemli hal alıb. Ona görə də ölkəyə gətirilən məhsulların qiyməti qonşu dövlətlərə nisbətən xeyli yuxarıdır. Məsələn, Gürcüstanda inhisarçılıqla, korrupsiya ilə bağlı mübarizə uğurla həyata keçirildi. Son illərdə sistem dəyişiklikləri baş verdi və bunun nəticəsi olaraq xarici ölkələrdən Gürcüstana gətirilən məhsulların qiymətində Azərbaycana nisbətən azı iki dəfəyə yaxın fərq, ucuzluq var. Amma baxmayaraq ki, məsafə olaraq Gürcüstanla Azərbaycan eyni zonada yerləşir və məhsulların gətirilməsinə eyni nəqliyyat xərcləri tələb olunur. Məsələn, Avstraliyadan gətirilən yağ Gürcüstanda Azərbaycandan iki dəfə ucuz satılır. Bunun səbəbi də sırf inhisarçılıq, bazara nəzarət edən qrupların digər rəqibləri bazara buraxmaması ilə bağlıdır ki, haqsız qazanc əldə etsinlər. Məhz bu haqsız qazanc nəticəsindədir ki, Azərbaycanda qiymətlər bahalaşır və xeyli dərəcədə həm Türkiyə, həm də Gürcüstanla qiymət fərqi yaranır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Mingəçevir köçkünləri etiraza qalxdılar

## "Dövlətin bizə ayırdığı mənzilləri satırlar..."

**Mingəçevir şəhəri, keçmiş Texniki Universitetin yataqxanasında məskunlaşan məcburi köçkünlər mənzil bölgüsünə etiraz olaraq aksiya keçiriblər. Yataqxana sakinləri bizimlə söhbətdə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin bu ilin sentyabr ayından başlayaraq mənzil bölgüsünə başladığını bildirdilər. Lakin onlar mənzillərin bölgüsü zamanı saxtakarlığa yol verildiyini iddia edirlər.**

1993-cü ildən Texniki Universitetin qəzalı vəziyyətdə olan yataqxanasında 178 ailə yaşayıb. Burada Ağdam, Füzuli, Laçın rayonlarından qaçqın düşən məcburi köçkünlər və yerli sakinlər məskunlaşıblar. Ötən aydan başlayaraq, 20-yə yaxın ailə istisna olmaqla, digərləri məcburi köçkünlər üçün nəzərdə tutulmuş yeni evlərə köçürülüb. Bu səbəbdən mənzillə təmin olunmayan sakinlər şəhərin mərkəzi küçələrində etiraz aksiyası keçiriblər.

Onların məqsədi bölgünün ədalətli şəkildə aparılması və aidiyyəti olmayan şəxslərə evlərin satılmasının qarşısının alınması olub. Çəkiliş apardığımız zaman məlum oldu ki, yataqxanada söküntüdən sonra bina qəzalı vəziyyətə düşüb. Köçürülən ailələrin mənzilləri səliqəsiz şəkildə sökülür. Qaz, işıq, su xətləri sıradan çıxıb.

Yataqxana sakinləri kommunal problemlərdən əziyyət çəkirlər. Sakinlər içməli suya belə, həsrət qaldıqlarını bildirdilər: "Mənzilləri tez boşaltmaq, camaatı çıxarmaq üçün yüz variantа əl atırlar. Gah suyu, gah da işığı kəsdilər ki, bezib çıxıb gedək".

Musavat.com-un kamerasına danışan məcburi köçkün İlyas İsmayılov mənzillərin pulla satıldığını dedi: "2 otaqlı mənzil üçün 8 min, 4 otaqlı mənzil isə 12 min manat istəyirlər. Kimin pulu var, adı siyahıda olub-olmamasından asılı olmayaraq, yeni mənzillər həmin şəxsə verilir. Burada illərdir yaşamayan bir nəfər var idi. Eşitdi ki, mənzil bölgüsüdür, Moskvadan gəldi, pulunu verib mənzili aldı. Dəfələrlə şikayətimi bildirmişəm, müraciət etmişəm. "Qaçqınkom"dan bildirilib ki, "əliniz hara çatır gedin şikayət edin". Deyirlər ki, Mingəçevirin Qaçqınkom"un sədri, Respublika "Qaçqınkom"un sədri Əli Həsənovun qohumudur. Siz hara müraciət etsəniz belə, xeyri yoxdur".

Məcburi köçkünlər qurumun Mingəçevir şəhər şöbəsi qarşısında etiraz aksiyasını davam etdirdilər.

Məcburi köçkünlərin mənzil problemi ilə bağlı komitə nümayəndəsi Hüseyn adlı şəxslə də görüşdük. Kameramıza danışmaqdan imtina etsə də, sakinlərin mənzil problemlərinə aydınlıq gətirdi: "Etiraz edən sakinlərin əksəriyyətinin adına mənzil var. Biz 100-dən çox ailəni siyahıya alıb, yeni mənzillə təmin etmişik. İstəsəniz onların adına mənzil olub-olmadığını yoxlaya bilərsiniz".

Çəkiliş zamanı etirazçılarla komitə nümayəndəsi arasında gərginlik yaşandı. Nazirlik nümayəndəsi ilə söhbət zamanı onlar qəfil içəri daxil olaraq mənzil problemlərinin həll olunmasını tələb etdilər. Məcburi köçkünlər "Qaçqınkom"u onlara veriləcək mənzilləri pulla satmaqda ittiham etdilər. Komitə nümayəndəsi onları çölə çıxarmağa cəhd göstərsə də, sakinlər müqavimət göstərdilər.

Ağdam rayonunun Xıdırlı kəndindən məcburi köçkün olan Nəzakət Süleymanova ona mənzil düşdüyü halda ala bilmədiyini dedi: "1993-cü ildən bu yataqxanada məskunlaşmışam. Heç yerə köçməmişəm. Qızım ailəsindən ayrıldıqdan sonra başqa bir mənzildə məskunlaşıb. Mənimlə heç bir əlaqəsi yoxdur. Ayrı-ayrı evlərdə yaşayırıq. Mənzillər verilən vaxtı qızımla məni bir mənzillə təmin edirlər. Məni qızımın üstünə yazıblar. Mənə ikiotaqlı mənzil verirlər. Mən isə haqqımı tələb edirəm. Verdiyi mənzildən imtina etdim".

Sakinlərin bildirdiyinə görə, icra başçısı Niyazi Bayramov köçkünlərin ölkə başçısına məktub göndərilməsinin qarşısını alıb. Poçtlara məktub göndərilməsinə qadağa qoyub. Sakinlər Yevlax rayonuna gedib, şikayətlərini oradan göndərirlər. Bundan əlavə, evlərin verilməsi bir tərəfə, yataqxanada oğurluq hadisələri də baş alıb gedir.










İcra başçısı Niyazi Bayramov köçkünlərə başqa bir yerdə 2 il müddətində ev tikdirib, paylanacağına vəd verib. Bir neçə gün əvvəl məcburi köçkünlər İcra Hakimiyyətinin qarşısına toplaşıblar və icra başçısının qəbuluna düşmək istəyərkən polis əməkdaşlarının təzyiqi ilə üzləşiblər.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

**Deputat Elmira Axundova və oğlu Həbib Axundovun adının 8 milyonluq dələduzluq qalmaqalına qarışdığı haqda məlumat vermişdik. Deputat və oğlu onlara yönəlik ittihamların doğru olmadığını söyləsələr də, qarşı tərəf iddialarında israrlıdır. "Yeni Müsavat"a müraciət edən Ziya Vəliyev, Elvin Vəliyev, Sabir Ağayev, Fərman Məmmədov və Şahin Məhərrəmov deyirlər ki, Həbib Axundovun dostu Elnur İbrahimovla yaratmış olduqları maliyyə fırıldağı piramidasının qurbanlarıdır.**

# Deputatın oğlundan prezidentə şikayət olundu

## "Elmira Axundovanın övladı həyatımızı cəhənnəmə döndərib"





Onlar redaksiyamıza təqdim etdikləri müraciətdə qeyd edirlər ki, Həbib Axundov və Elnur İbrahimovun əməlləri nəticəsində Ziya Vəliyevin 205 min, Elvin Vəliyevin 202 min, Sabir Ağayevin 115 min, Şahin Məhərrəmovun 70 min, Fərman Məmmədovun isə 575 min məbləğində pulları əllərindən çıxıb. Müraciət müəllifləri yazır ki, onlar əvvəlcədən planlaşdırılan dələduzluq cinayəti ilə üz-üzə qalıblar. Məhz Həbib Axundovun vasitəsi və zəmanəti ilə birbaşa onun özünə və hazırda CM-nin 178.3.2-ci (dələduzluq) maddəsi ilə axtarışda olan Elnur İbrahimova pul verdiklərini iddia edirlər.

Şikayətçilərin ailə üzvləri Bakı şəhər sakinləri Zeynəb Xeyrulla qızı Məmmədova, Sədaqət Əlisaab qızı Vəliyeva, Şərafət Tahir qızı Məmmədova, Aybəniz Qüdrət qızı Abdullayeva, İradə Tanrıverdi qızı Hüseynova, Aynur Əhəd qızı Vəliyeva, Tamarə Yusif qızı Abdullayeva, Ramin Elşad oğlu Vəliyev, Elşad Əbdülhəmid oğlu prezident İlham Əliyevə, millət vəkili Mehriban Əliyevaya, Milli Məclisin sədri Oqtay Əsədova, daxili işlər naziri Ramil Usubova, baş prokuror Zakir Qaralova və ombudsman Elmira Süleymanovaya müraciət ediblər.

Müraciət müəllifləri yazır ki, təxminən 3 il əvvəl xırda alverlə məşğul olan Elnur İbrahimov adlı bir şəxs, Həbib Axundov adlı bir gömrük işçisi ilə əlbir olaraq "geniş biznes şəbəkəsi" qurmaq planı işləyib hazırlayıblar. Qısa müddət ərzində bu cütlük plana uyğun olaraq yaxından tanıdıqları adamların etibarından istifadə edərək, onların hər birinin külli miqdarda pulunu ələ keçiriblər. Aldadılmış həmin şəxslər hətta heç nədən şübhələnməyib və fikirləşiblər ki, Həbib Axundov və onun dostu pul qoparmaq naminə Həbib Axundovun anası, Milli Məclisin üzvü Elmira Axundovanın nüfuzunu güdaza verməz.

Müraciət müəllifləri yaxınlarının yanıldığını və bu gün aldadılanların sayının onlarla olduğunu qeyd edirlər: "Çox keçməyib ki, Həbib Axundov - Elnur İbrahimov cütlüyünün bəd əməlləri iflasa uğrayıb. Qəzetlərin də verdiyi məlumatlara görə bunlar təxminən 8 milyon manat pul mənimsəyiblər. Zərərçəkmişlər Elnur İbrahimovu istintaq orqanına vaxtında təqdim etsələr də, Həbib Axundov və onun havadarları məqsədli şəkildə faktla bağlı cinayət işi başlamayıb, Elnur İbrahimov qaçırılaraq respublika hüdudlarından kənara göndərilib. Yalnız bundan sonra faktla bağlı cinayət işi başlanmış. Elnur İbrahimov təqsirləndirilən şəxs qismində cəlb edilmiş və onun olduğu yer məlum olmadığından cinayət işi üzrə icraat dayandırılıb, Həbib Axundov isə anasının qanadı altında əməllərini davam etdirir. Aldadılmış, müflis olmuş insanların əzab-əziyyəti də elə həmin gündən başlayıb. Anası Elmira Axundovanın əlaqələrindən, polis generalının adından sui-istifadə edən Həbib Axundov polis orqanlarında çalışan tanış-bilişlərini ayağa qaldırıb. Yüz minlərlə pul itirmiş, müflis olmuş insanlar isə polis müstəntiqlərinin əlində oyuncaq olublar. Məkrli niyyət aydındır; Elmira Axundovanın nüfuzunu qorumaq, oğlunun da dələduzluğunu ört-basdır etmək üçün zərərçəkənlər o qədər incidilib get-gələ salınmalıdırlar ki, onlar özləri boğaza yığılıb tələblərindən əl çəksinlər. Biz yaxşı bilirik ki, ölkənin yüksək rütbəli dövlət xadimlərinin məmur övladı və onun dəstə üzvlərinin bu mənfur əməlləri barədə xəbərləri yoxdur. Bütün varlığımızla əminik ki, hüquq-mühafizə orqanlarımız heç kimin əlində alət olmayıb, bundan sonra da olmayacaq. Onu da bilirik ki, bir-iki müstəntiq eyhamlı, ikibaşlı suallarla zərərçəkənləri dolaşdırmaq, fikirlərindən döndərmək üçün canfəşanlıq edirlər. Bunlar camaatın pulunu mənimsəmiş dələduz Elnur İbrahimovu və cəzalanmayacağına tam arxayın olduqları Həbib Axundovu nəyin bahasına olursa-olsun qıraqda saxlamaq, məsuliyyətdən yayındırmaq istəyirlər. Doğmalarımız səksəkə içərisindədirlər. Hər dəfə dindirilməyə dəvət edildəndə bilmirlər müstəntiqlər daha hansı pəstahları açacaqlar. Bundan da böyük rəzalət olar? Var-dövlətimiz əlimizdən getməklə yanaşı kreditorların qarşısında aciz qalmışıq. Hər gün borc aldığımız şəxslərdən hədə dolu sözlər eşidirik. Qəsdən aradan çıxarılmış Elnur İbrahimovun saxlanılıb sorğu-suala çəkilməsi üçün istintaq orqanı tərəfindən konkret olaraq heç bir iş görülmür. Deputatın oğlu Həbib Axundov isə heç bir şey baş verməmiş kimi kefindədir. Ona güldən artıq söz deyilmir. Biz nə vaxta qədər dələduzları min bəhanə ilə məsuliyyətdən uzaqlaşdırmağa cəhd edən qərəzli müstəntiqlərin həqarətlərinə dözməliyik? Belə çıxır ki, susmalıyıq, əzizlərimiz halal pullarından əl çəkməlidirlər, təki deputatın adı orda-burda hallandırılmasın?"

Müraciət müəllifləri deputat oğlunun onlardan alınan pullar hesabına aldığı əmlakların siyahısını da təqdim edirlər: "Möhtərəm Cənab Prezident! Millət vəkili Elmira Axundovanın oğlu Həbib Axundov dələduzluq yolu ilə övladlarımıza olmazın əzabını yaşatmaqla bahəm, bütün ailə üzvlərimizin həyatını cəhənnəmə döndərib. Həmin pullar hesabına Bakı şəhərinin A. Alı 45 ünvanında 5 mərtəbəli möhtəşəm bina, Nəsimi rayonu N.Rəfibəyli küçəsi 72 ünvanında 6 mərtəbəli ofis binası inşa etdirən Həbib Axundov qiyməti yüz min manatlarla ölçülən 4-5 ədəd bahalı avtomaşınlarda gəzməklə, London, Dubay, Türkiyədə kef məclisləri qurmaqla "Port Baku" yaşayış kompleksində 235 kv.metrlik lüks evində dəbdəbəli həyatını yaşayır. Dövlət Gömrük Komitəsində aylıq maaşı 486 manat olan bu şəxs hansı vəsait hesabına yuxarıda qeyd etdiyimiz obyekt və avtomaşınlara, villalara və daha nələrə sahiblənib? Əlbəttə ki, bizim övladlarımızın və daha onlarla insanlardan dələduzluq yolu ilə aldadıb aldığı pullar hesabına. Sizdən xahiş edirik ki, bizim müraciətimizi nəzarətə götürüb, Həbib Axundovun və onun havadarlarının qanun qarşısında cəzalandırılması və bizim övladlarımıza vurduğu maddi ziyanın ödətdirilməsi üçün aidiyyəti strukturlara göstəriş verəsiniz".

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Moskvalı oğlanın Bakı döyülməkliyi...



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**Rəhmətlik Habil Əliyevin adına yazılan lətifələrdən biridir. Nə qədəri doğru, nə qədəri uydurma bilinməz. Demək, qeyri-ənənəvi orientasiyası ilə ad çıxarmış manıslaran biri məşhur kamança ustasını hansısa məclisdə görüb, görən kimi də cibinə xeyli pul basaraq, "ustad, sizə layiq deyil, amma xərcləyin" deyib. Habil Əliyev də pulu götürüb, qayıdıb yanındakı dostlarına "bə deyirdiz bu, kişi döyül" söyləyib.**

Ötən həftə Rusiya kanallarından birinin Bakının mərkəzində gey axtarışı ilə bağlı çəkdiyi (yoxsa uydurduğu) kadrı görəndə yadıma düşdü bu lətifə. Baxanlar baxıb, baxmayanlara isə deyim ki, özünü gey kimi qələmə verən "jurnalist" şəhərin mərkəzindəki bığıburma gənc oğlanlara yaxınlaşaraq, onlara münasibət təklif edir və demək olar ki, oğlanların hamısı bunu təpiyinin altına salırlar. Bunun yumruğa əl atanı da olur, taekvando ustası kimi iki saniyənin içində "moskviç"i nokauta salanı da. Amma süjet vasitəsilə verilən, verilmək istəyən mesaj bu idi: Azərbaycanda cinsi tolerantlıq yoxdur, homofobiya var, qeyri-cinsi orientasiyalı insanları öldürürlər, doğrayırlar... Ay aman, qoymayın, Kreml köməyə gəlsin, Putin də qolunu çırmasın...

Həyatımda belə qeyri-peşəkar süjet hazırlandığını görmədiyimi deməklə yanaşı... bunun necə qərəzə xidmət etdiyinin də üstündən keçməyəcəm. Birincisi və ən önəmlisi, bu ölkədə nəinki kişilərə, qadınlara, qızlara da yolun ortasında belə təklif ediləndə analoji reaksiya verilir və verilməlidir. Hansı qadın parkda oturan yerdə "gəl səninlə bara gedək və...." deyən kişiyə, lap elə qadına dözümlü münasibət göstərir. Göstərməlidirmi? Xüsusən də məlum süjetdəki kimi qarşı tərəf bunu israrla, abırsızcasına edirsə, qadın çantasına əl atıb, onun başına da vura bilər, gücü çatsa təpikləyə də, döyə də. Dözümlülük bir şeydir, sırtıqlığa adekvat cavab vermək tamam başqa bir şey.

Digər tərəfdən, hər şeyin bir məkanı, yeri olmalı deyilmi? Könlü belə münasibət istəyənin şəhərin mərkəzinə çıxıb, hər qabağına çıxan adama belə təklif vermək lüksü yoxdur, olmamalıdır. Və bu, təkcə Azərbaycan üçün keçərli deyil. Dünyanın hər yerində belədir. Bu qəbildən olan insanlar üçün xüsusi barlar, küçələr, gecə klubları... nə üçündür bəs? Demək ki, inteqrasiya etmək istədiyiniz Avropada belə həmin sərhədlər aydın xətlə cızılıb. Harda nə olar, nə olmaz... deyə...

Hər şey bir kənara, neçə ildir jurnalistəm. Amma mən bu günə qədər qeyri-cinsi orientasiyalı şəxslərə qarşı paytaxtda kütləvi zorakılıq, ya da tez-tez baş verən qətl hadisələri barədə nə məlumatlıyam, nə məhkəmələrdə belə işlərə rast gəlmişəm. Bu ölkənin ən bərkgedən kanalları onların üzünə açıqdır - səhərdən-axşama qədər efirdə onlar şıllaq atırlar. Əzilə-büzülə veriliş aparan onlar, toylarda tamadalıq edən onlar, hətta və hətta izdivac verilişi aparıb camaata ağ(saqqal)birçək məsləhəti verən onlar... Toyunda üç mahnı oxusun deyə, 10 min manatı uf demədən onlara ödəyən isə bizlər... Şəhərin məşhur prospektlərində, küçələrində gecə saatlarında fironluq edən homoseksuallardırsa, kim hansı homofobluqdan danışır?

İnsana qarşı zorakılığa yox deyək... Deyək deməsinə, amma bir "moskviç" günün günorta çağı, şəhərin ortasında hər önünə çıxana "gəl, gedək...." deyirsə, kötəyin də cənnətdən çıxdığını qəbul etməlidir. Buna azərbaycanlı şapalağı deyirlər və bu kimi hallarda çox haqlı olaraq açılır...

# Bakının su təhlükəsizliyi ilə bağlı məhkəmə uzanır

## Məsələyə dair ədalətli qərarın veriləcəyinə inam azalır

**Bakı Apelyasiya Məhkəməsinin İnzibati İqtisad kollegiyasında hakim Elşanə Vəliyevanın sədrliyi ilə Bakının Şərq hissəsinin - Nizami, Xətai, Səbayel, Suraxanı və Sabunçu rayonlarının içməli su təhlükəsizliyinə birbaşa aidiyyəti olan araşdırma getməsi haqda məlumat vermişdik.**



İllərdir davam edən məhkəmə prosesində yekun olaraq yeganə suala - Nizami rayonu, Çobanzadə küçəsi 45 ünvanında yerləşən mübahisəli torpaq sahəsindən 1200 və 1400 mm diametrli su borularının keçib-keçmədiyinə aydınlıq gətirilməsidir. İlk baxışdan belə görünür ki, bu məsələni aydınlaşdırmaq su içmək qədər asandır. Amma məhkəmə proseslərindəki araşdırmalar, üzücü sorğu-suallar məsələnin həllinin heç də asan olmadığını, ədalətli qərarın verilməsinin ağırlığı ortaya çıxır.

Hazırkı araşdırmaya səbəb olan iddia ilə "Azərsu" ASC çıxış edib. ASC rəsmiləri Nizami rayonu, Çobanzadə küçəsi 45 ünvanında yerləşən və xüsusi dövlət mülkiyyəti olan torpaq sahəsinin üzərində aparılan tikintinin ləğv olunmasını istəyiblər. İşə 3-cü şəxs qismində "Buxar" Kollektiv Müəssisəsi və həmin xüsusi dövlət mülkiyyətində olan torpaq üzərində ev tikmiş Tamara Həmidova da qoşulublar.

İş üzrə keçirilən son prosesdə T.Həmidovanın vəkili Muxtar Mustafayev məhkəməyə mübahisəli torpaq sahəsinin qonşuluğunda olan "Fariz", "Monolit F.B", "Qoşqar M", "Cənnət Məkan", "Notinqem", "İlqar M", "Xəzər M" firmalarına borudan 5 metr aralıda restoranlar inşa olunmasına dair sənədlər təqdim edib. Vəkil ASC-ni müvəkkilinə münasibətdə ayrı-seçkilikdə ittiham etdi.

Dedi ki, respublika ərazisində istifadədə olan boruların texniki pasportları hazırlanmır. O, mübahisəli ərazidən keçdiyi bildirilən su xəttindən saniyədə 3 kub metr suyun keçdiyi haqda ASC rəsmilərinin təqdim etdiyi sənədlərdəki qeydlərin doğru olmadığını məhkəmənin diqqətinə çatdırdı. Vəkilin sözlərinə görə, bu tipli su xəttlərində ötürücülük saniyədə 700 litrdən artıq deyil.

Belə olan halda müvəkkilinə münasibətdə ayrı-seçkiliyin ona qarşı qərəzdən irəli gəldiyini söylədi: "Tamara neqrdır?"

Prosesdə iştirak edən Nizami bələdiyyəsinin nümayəndəsi bildirdi ki, sözügedən torpaq sahəsində olan su xəttinin mühafizə zolağı 5 metrdir və bələdiyyə torpağı icarəyə verərkən həmin zolağı nəzərə alıb: "Həmin torpaq sahəsi icarəyə verilərkən torpaq Nizami bələdiyyəsinin deyildi. Vətəndaşın müraciətindən sonra Bakı şəhər İcra Hakimiyyətinə müraciət olunub. Oradan torpağı bələdiyyənin balansına keçiriblər və torpaq Tamara xanımın qardaşının adına verilib".

Nümayəndə hakimin torpaqlarda, su xətləri keçdiyi halda hansı şərtlərlə icarəyə verilməsi haqda sualına belə cavab verdi: "Qayda belədir ki, torpaqdan su xətti keçirsə, "Azərsu" ilə razılaşdırılır, 5 metr mühafizə zolağı saxlanılmaqla icarəyə verilir". O, mühafizə zolağının necə müəyyən olunması haqda suala cavab verə bilmədi.

T.Həmidova isə mübahisəli torpaq sahəsinin ona bağ sahəsi kimi icarəyə verilərkən müvafiq qurumların rəyinin alındığını söylədi. İş üzrə iddia qaldırmış "Azərsu" rəsmilərinin ünvanına kəskin ifadələr işlətməklə iddianı əsassız hesab etdiyini açıqladı.

"Buxar" MMC-nin vəkili Anar Rüstəmov isə məhkəmənin diqqətini həmkarı Muxtar Mustafayevin nitqinə çəkdi. A.Rüstəmov bildirdi ki, M.Mustafayev mübahisə obyekti olan torpaq sahəsindən su xəttinin keçmədiyinin iddia etdiyini, iddiasını bunu sübut edən texniki sənədlərin ortada olmaması ilə izah etdiyini söyləyib. Bildirib ki, bununla belə M.Mustafayev məhkəməyə ərazidən su xəttinin keçməsi ilə bağlı sənədlər təqdim edib.

Vəkil hakimin sualına cavab olaraq dedi ki, T.Həmidova "Buxar" MMC-yə məxsus 105 kv.m-ni zəbt edib. Ona görə də MMC prosesə 3-cü şəxs qismində qatılmaq məcburiyyətində qalıb. T.Həmidova isə bildirdi ki, o ərazini zəbt etməyib, ərazidə olan tikililəri sökərək orada ev tikib. Həmin ev isə sonradan məhkəmə qərarına əsasən sökülüb.

Proses oktyabrın 21-də davam etdiriləcək.

Qeyd edək ki, T.Həmidova 2003-cü ildən başlayaraq mübahisə obyekti olan ərazidə ev tikib, əsaslı tikinti aparıb. Mübahisə də bundan sonra başlayıb. İş üzrə bir neçə məhkəmə iddiası qaldırılıb. Tikilmiş evin Bakının yarısını su ilə təchiz edən yüksək təzyiq altında olan 1400 mm-lik və 1200 mm-lik magistral su kəmərlərinin mühafizə zolağının daxilində olması üzündən sökülməsi qərarı verilib. İndiyə qədər iş üzrə 30-dan çox məhkəmə iddiası olub. Həmin iddiaların əksəriyyəti təmin olunub.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Məşhur Qırğızstan balı Respublika sərgi - satış yarmarkasında**

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Karkıra balı və s.*

Ünvan: Bakı şəhər, Nizami küçəsi 154 (keçmiş ayaqqabı fabriki) masa 137.
**Tel:** (051) 922-15-71



## Bu həftə əqrəblər bir saat geri çəkiləcək

**Oktyabrın 25-də Azərbaycan ərazisində qış vaxtına keçiləcək. Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında" 1997-ci il 17 mart tarixli qərarına əsasən hər il mart ayının son bazar günü əqrəblərin bir saat qabağa çəkilməsi ilə yay vaxtına keçilir. Hər il oktyabr ayının son bazar günü isə əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilir.**

Beləliklə, bu il oktyabrın 25-də saat 05:00-da Azərbaycan ərazisində saatların əqrəbləri 1 saat geri çəkilməklə yay vaxtı ləğv ediləcək.

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 231 (6259) 19 oktyabr 2015

# Dünya əhalisinin boyu 7 santimetr qısalıb

## İnsanların boyu ildən-ilə niyə kiçilir? Ucaboylu olmanın qəribə sirləri və ilginc vasitələri...

**"İndiki uşaqların boyu yaman qısalıb, yaşlarına görə balacadır əksəriyyəti..." Ötən həftə orta məktəbdə ikən müəllimələrin birindən eşitdim bu narazılığı. Müasir uşaqların cılız olması, bunun da qavramaya, dərs yükünü mənimsəməyə təsir etməsindən danışırdı pedaqoq. Və iddia edirdi ki, illər ötdükcə uşaqlar yaşlarına adekvat boy uzunluğunda olmurlar. Bu da bilavasitə onların təhsilinə, savadına təsir göstərir. Nə qədər doğru, nə qədər yanlış - bu, bir dartışma mövzusudur.**

Öncə rəqəmlərə müraciət edək. Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin orta statistik boyu 167,2 sm, kişilər üçün orta boy 170,6 sm, qadınlarda isə 164,1 sm olub. Övladlarınızın ideal boya sahib olub-olmamasını bilmək üçün hər iki valideynin boyunun toplanmasından 13 çıxılaraq alınan rəqəmi 2-yə bölün. Aldığınız cavab övladınızın ideal boy ölçüsüdür. Oğlanlarda normal böyümə 1 yaşına qədər ildə 25 sm, 1-2 yaş arası - ildə 10-12 sm, 2-4 yaş arası - ildə 6-8 sm, 8-12 yaş arası - ildə 5 sm-dir. Həddi-büluq dövründə oğlanların böyümə surəti 20-25, qızların isə 15-20 sm-dir. Araşdırmalar isə göstərir ki, boyun qısalması təkcə Azərbaycanda mövcud olan problemlərdən deyil. Bu problem dünyanın bütün ölkələrində özünü büruzə verir. Belə ki, son hesablamalara görə, dünya əhalisinin boyu 7 sm-ə qədər qısalıb.

**Ucaboylu uşağın sirri... Hər şey hamiləlikdən başlayır**

Amma dərd varsa, dərman da var. Boyu uzatmanın da müxtəlif yolları mövcuddur. Boyun uzunluğu əsasən genetik olaraq reallaşır. Əgər valideynlərin boyu ucadırsa, bu, uşaqda da genetik olaraq özünü göstərəcək. Boyun uzadılması üçün ən uyğun bəslənmə tərzi tərəvəz, meyvə və zülalların balanslı qəbuludur. Sağlam bir hamiləlik sonunda ümumiyyətlə, qız uşaqları 48 sm, oğlan 50 sm boyunda doğulur və sürətlə uzanmağa davam edirlər. Normal sümük böyüməsi üçün kafi zülalın qəbulu, A, C, D vitaminləri, kalsium, fosfor və yodlu qidaların yetərli miqdarda istehlakı lazımdır. Sink və mis kimi elementlər də boy uzanması üçün olduqca lazımlı minerallardır. Lakin "bu vitamin və minerallar nə qədər çox qəbul olunsa, boy o qədər uzun olar" deyə düşünmək də yanlışdır. Bunlar yalnız boyun normal şəkildə uzanmasını təmin edir və əskikliyində boy qısalığı yarana bilər.

Zülal və lazımlı mineralların yetərincə alına bilməsi üçün ət və süd məhsullarının uşaqlıq və yetkinlik dövründə nizamlı olaraq istehlak edilməsi lazımdır. Çiy yeyilə biləcək tərəvəz və meyvələrin mümkün qədər bişirilmədən yeyilməsi lazımdır. Hər cür qatı qidanı ala bilən uşaqlarda əlavə vitamin möhkəmlətməsinə ehtiyac olmur. Alınan əlavə vitaminlərin boy uzanmasına bir təsiri yoxdur. Gərəyindən çox alınan zülal və kalori qəbulu boyu uzatmır.

Qeyri-düzgün qidalanma boy qısalığı səbəblərinin başında gəlir və hətta ən əhəmiyyətlisidir. Yeməklər boy uzanmasında nə dərəcədə təsirlidir? Bəli, qətilik var ki, hətta qidaların boya təsiri hamiləlik dövründə başlayır. Uşağın normal boylu ola bilməsi üçün ana sağlam, nizamlı və balanslı qidalanmalı, siqaret və spirtli içkidən uzaq dayanmalı, hamiləlik dövründə pəhriz saxlayacaqsa, bu dieta çox möhkəm olmamalıdır, hətta kilo vermək üçün çalışılmamalıdır. Ayrıca artıq şəki də hamiləliyin sağlam sürməsini əngəlləyəcəyi unudulmamalıdır.



Uşaqlıq dövründə yaxşı bir inkişaf üçün yuxu çox vacibdir. Daimi yuxunun, zehni və fiziki inkişaf üçün əhəmiyyəti, elmi olaraq sübut edilib.

**Boyunuzu uzadın - çıxış yolları bunlardır...**

Həkimlər bundan başqa çıxış yolları da göstəriblər. Bunlardan birincisi, heç şübhəsiz, düzgün yatmaqdır. Biz istirahət edərkən vücudumuz böyüyür və toxumalar yenidən əmələ gəlir. Düzgün yuxulamaq və dincəlmək böyüyən vücud üçün mütləq şəkildə vacibdir. Güman edilir ki, İnsanın Böyümə Hormonu (İBH) bizim vücudumuzda əsaslı, dərin və asta yuxu zamanı təbii şəkildə əmələ gəlir. Böyüyən uşaqlar və yaxud yeniyetmələr özlərinin maksimum boy hündürlüyünə çatmaq üçün hər gecə 8 saatdan 11 saata kimi düzgün yuxu qəbul etməlidirlər. Sizin düzgün yatmaq mühitinizin olmasını təmin etmək həddən artıq vacibdir. O sakit, narahatedici səslər və yaxud güclü işıq olmadan baş verməlidir.

Müntəzəm fiziki məşğələlər və idman. Boyun təbii şəkildə artması üçün ən yaxşı məsləhətlərdən biri uşaq olarkən fiziki baxımdan gümrah və fəal olmaqdır. Müntəzəm məşğələlər və idman fəaliyyətləri insanın boyunu artırır. Siz fiziki baxımdan fəal olduqda vücudunuz daha çox sağlam qidalandırıcı maddələr tələb edir və nəticə etibarilə qidalandırıcı maddələrin qəbulunda artım düzgün böyümə ilə nəticələnir. Üzgüçülük, aerobika, tennis, futbol, basketbol kimi idman fəaliyyətlərindən zövq almaq və yaxud bir sıra bədən əzələlərini açan hərəkətlərlə məşğul olmaq vücudumuzun böyüməsini təmin etmək üçün yaxşı üsullardır. Əzələlərimiz tərin çıxması vasitəsilə vücudumuzu təmizləməkdən və zərərli maddələrdən azad etməkdən başqa böyümə potensialımızı artırır. Müntəzəm məşqlər və yaxud idman aydın şəkildə gündəlik fəaliyyətlərimizin tərkib hissəsi olmalıdır:

Üzgüçülük boyunuzu artırmaq üçün ən yaxşı yollardan biridir. Əgər bir kəs buna erkən yaşlarında başlasa, əlbəttə ki onun boyunun hündürlüyü, adekvat olacaqdır. Həftədə 4-5 gün gündəlik 2 saatlıq üzmək boyunuzun hündürlüyünü artırmaqda yüksək dərəcədə effektiv təsir göstərə bilər.

Sizin başlanğıc üçün sınaqdan keçirə biləcəyiniz dartınma hərəkətləridir. Sadə dartınma məşqlərini müntəzəm olaraq, sizin üçün səmərəli olması üçün onları ən azı 15 dəqiqə müddətində etməyiniz tövsiyə olunur.

Asılma məşqləri bir kəsin öz boyunu məşqlər vasitəsilə artırmaq üçün faydalı ola bilər. Baxmayaraq ki, bu başlanğıcda sınaqdan keçirmək üçün bir qədər çətin gələ bilər, siz yavaş-yavaş asılmağa öyrəşəcəksiniz. Sizə bunun üçün lazım olan sadəcə bir tirdir. Ondan qollarınızla və onurğanızla 10 saniyə ərzində dartılmış vəziyyətdə asılın. Bir-birinin ardınca 12 dəfə bunu təkrar edin və yaxud həmin hərəkəti hər gün 2 dəqiqə ərzində yerinə yetirin.

Yoqa. Yoqa boyunuzu təbii şəkildə artırmaq üçün mükəmməl və nisbətən daha az gərgin üsuldur. Yoqa ümumi gümrahlıq gətirir ki, bu da sizin boyunuzun artmasına təkan vermək üçün faydalıdır. Müəyyən yoqa pozaları vücudunuzda böyüməyə səbəb olan hormonların buraxılmasını sürətləndirir. Yoqada cəmləşdirilmiş dartınma və tarazlaşdırma çalışmaları əzələləri möhkəmləndirir və bədənin qamətini də yaxşılaşdırır. Üçbucaq poza (trikonasana), kobra pozası (bhujangaasana), dağ pozası (tadasana), məmnunluq pozası (sukhasana), ağac pozası (vriksasana) kimi yoqa pozalarını sınaqdan keçirin. Siz öz fitness rejiminizə suryanamaskarı da əlavə edə bilərsiniz.

Qaməti düzgün saxlamaq. Uşaqlıqdan qamətin düzgün saxlanılmasına lazımi diqqət yetirilməlidir. Stulda düzgün oturmaq, piyada gəzərkən və yaxud ayaq üstə dayanarkən çiyinlərinizi düz, çənənizi dik və ombanızı ayaqlarınızın üzərində saxlamaq kimi sadə şeylər gerçəkdən də sizin boya əlverişli təsir göstərə bilər. Gəzərkən qamətinizi əyməyin. Düz onurğa və güclü kürək boyunuzun artmasında çox əhəmiyyətlidir. Boynunuzu və başınızı əyilmədən və yaxud qamətinizi bükmədən nizamlayın. Yaxşı yastıq və vücudunuza dost döşək də onurğanızı rahat saxlamaq üçün bərabər dərəcədə vacibdir.

Qeyd etmək lazımdır ki, gəzərkən və yaxud dayanarkən çiyinləriniz əyilməməlidir. Bütün vasitələrlə donqarlıqdan qaçınmaq lazımdır. Yaxşı və düzgün qamət sizi hündür, yaraşıqlı və əmin göstərir.

Balanslaşdırılmış pəhriz. Balanslaşdırılmış pəhriz düzgün qidalanmaya nail olmaq üçün mütləq dərəcədə əhəmiyyətlidir. Nəyin bahasına olursa-olsun, sağlam olmayan qidadan uzaq durun. Bunu təmin etmək lazımdır ki, boyunuzun tam böyüməsi üçün siz vücudunuzun ehtiyac duyduğu bütün vitaminləri və mineralları qəbul edəsiniz.

Doymuş yağlardan, qazlı içkilərdən və həddən artıq şəkərlə doldurulmuş ərzaqlardan qaçın, çünki bunlar boya mənfi təsir göstərə bilər.

Vitamin D və zülallar boy artma hormonlarının çoxalmasına kömək edir və dişlərin və sümüklərin düzgün inkişafı üçün də onlar tələb olunur. Beləliklə bu qidalandırıcılarla zəngin olan pendir, paxla, tofu, yağsız ət, yumurta ağı sizin qida menyunuza daxil edilməlidir.

Sink qəbul etmək də çox vacibdir, çünki onun çatışmazlığı uşaqlarda böyümənin zəifləməsinə gətirib çıxara bilər. Quşqonmaz (mərəçüyüd), şokolad, yumurta və yerfındığı kimi ərzaqlar sinklə zəngindir. Süd məhsullarında və yaşıl tərəvəzlərdə tapılan kalsium sümüklərin böyüməsi və inkişafı üçün tələb olunur. Bundan başqa, maqnezium və fosfor kimi minerallar, karbohidratlar və vitaminlərdən də imtina etmək olmaz, çünki onlar da vücudun düzgün böyüməsinə öz töfhəsini verir. Qida tələbatları həm də məhdud miqdarda əlavələrin qəbul edilməsi ilə tamamlana bilər.

Yaxşı maddələr mübadiləsinə malik olmaq vacibdir. Beləliklə, gün ərzində 6 dəfə balanslaşdırılmış qida qəbul edə bilərsiniz. Kiçik, lakin yaxşıca ölçülüb-biçilmiş porsiyalar sizin maddələr mübadiləsi dərəcənizi artırmaq üçün yardımçı ola bilər. Bu, bədəninizdə daha az yağın saxlanmasına gətirib çıxarmaqla sizin düzgün ucalığa qədər boy atmağınıza imkan verəcək.

Böyüməni ləngidən amillərə gəlincə, bunlar da aşağıdakılardır.

Gənc yaşlarında narkotik və yaxud alkoqol qəbul etmək həddən artıq zərərli ola bilər. Bunlardan istifadə etmək boy artımının ləngiməsinə və doyunca qidalanmamağa gətirib çıxara bilər ki, bununla da normal boya qovuşmaq əngəllənər.

Kofeinin qəbul edilməsi məhdudlaşdırılmalıdır, xüsusən də uşaqlar arasında, çünki o sizi düzgün və müntəzəm yuxulamaqdan saxlayır. Uşaq və yeniyetmələrin 8 saatdan 11 saata qədər düzgün yuxuya ehtiyacı olduğundan, kofein bunu böyük ölçüdə məhdudlaşdıraraq, bununla da dolayısı şəkildə böyümənin ləngiməsinə dəstək olur.

Bundan əlavə, steroidlərin də gənc uşaqlarda sümük inkişafına mane olaraq onların boyuna mənfi təsir göstərdiyi aşkar edilib. Tədqiqat göstərib ki, astmadan əziyyət çəkən və inqalyatorlardan istifadə edən uşaqlarda və yeniyetmələrdə boyun digərlərindən az artması tendensiyası müşahidə olunur. Bu ona görə baş verir ki, həmin inqalyatorlar qana budesonid adlanan nisbətən kiçik miqdarda steroid keçirir.

Güclü immun sistemi. Bəzi uşaqlıq dövrü xəstəlikləri də ləngiyən artıma səbəb ola bilər. Bundan müntəzəm olaraq immunlaşdırma yolu ilə və çoxlu vitamin C qəbul etməklə qaçmaq olar ki, onu da portağal, qreyfrut və limon kimi sitrus bitkilərindən əldə etmək mümkündür. İmmun sistemi bütöv və təzə məhsullar yeməklə və çox məşhur marqarin kimi emal olunmuş və hidrogenləşdirilmiş ərzaqlardan qaçınmaqla güclü saxlanıla bilər.

Sağlam diet sağlam immun sisteminə səbəb olacaq. Sağlam immun sisteminizi saxlamaq üçün rasiona çoxlu meyvə-tərəvəz, paxlalı və dənli bitkilər, antioksidantlar və omega-3 yağ turşuları ilə zəngin olan ərzaqlar daxil edin.

Tibbi yardıma müraciət edin. Əgər siz yeniyetməlik çağınızın ortasına çatmısınızsa və bütün üzvlərin hündürboylu olduğu ailədən çıxmısınızsa, ancaq öz boyunuzun artmadığını aşkar edirsinizsə, həkimə müraciət etməyiniz ağlabatandır. Bəzi tibbi şərtlər erkən mərhələdə müəyyən oluna bilər. Beləliklə də, əgər mümkün olan bütün vasitələrdən istifadə edirsinizsə, ancaq hələ də boyunuz artmırsa, həkim məsləhətinə müraciət etmək tövsiyə olunur.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 231 (6259) 19 oktyabr 2015



# 3 min dollara satılan siqar kötüyü

Sabiq Britaniya baş naziri Uinston Çörçilin xəstəxanada çəkərək ucu çeynənilmiş siqar kötüyü 3 min dollara satılıb. Bu barədə Britaniya mətbuatı yazıb. Siqarı 1962-ci ildə omba sümüyünün sınmasından sonra Uinston Çörçilin müalicə olunduğu Middlesex Hospitalının tibb bacısı öz qardaşı üçün saxlayıb. 87 yaşlı Çörçil xəstəxanaya Monte- Karloda yıxıldıqdan sonra yerləşdirilib. Tibb bacısı kül qabındakı siqar kötüyünü üstünə "istifadə olunmuş tibbi sarğı" yazılmış bir paketin içinə qoyduqdan sonra ona əl dəyən olmayıb. Hərraca çıxarılmış siqarın 1000 funt-sterlinqə (1620 AZN) satılacağı gözlənilirdi. Lakin satışlar vaxtı qiymət iki dəfə artaraq 2000 funta (3240 AZN) çatıb. Siqarı satışlara telefonla qatılan hərrac iştirakçısı alıb. Onun adı açıqlanmır. Uinston Leonard Spenser Çörçil 1874-cü ilin noyabrın 30-da Malboro hersoqunun oğlu Randolf Çörçilin ailəsində doğulub. 7 yaşında imtiyazlı məktəbə göndərilən Uinstonun ilk gündən oxumaq həvəsi olmayıb. Üstəlik o, məktəbin qaydalarına əməl etməyi ləyaqətinə sığışdırmayıb. Hətta o dövr məktəblərdə tətbiq edilən çubuqla döyülmə də onu ram edə bilməyib. Kollecə daxil olanda isə o, imtahan üçün nəzərdə tutulan iki saatda bir neçə işarə yazmaqla kifayətlənib.

# Sünì ət satışa çıxarılacaq



Hollandiyalı alimlər laboratoriyada istehsal edilən ətdən hazırlanan fastfood yeməklərinin 2020-ci ildə satışa çıxarılacağını açıqlayıblar. "Kök burger" olaraq adlandırılan süni qamburgerlər Hollandiyanın Matrict Universiteti araşdrımaçılarının 5 ilik əməyi nəticəsində ortaya çıxıb. Süni əti hazırlayan qrupun rəhbəri olan Peter Verstrate verdiyi müsahibədə "çox həyəcanlıyam, məhsulumuzun 5 il sonra satışa çıxacaq olması mənim üçün çox önəmlidir" deyib. Araşdırma müddətində 330 min dollar maddi vəsait sərf edilərək yalnız bir qamburger üçün ət hazırlanıb. Təcrübə üçün maddi dəstəyi isə Google şirkətinin qurucusu Sergey Brin verib. Araşdırmaçılar ətin daha asan və ucuz başa gəlməsi üçün yollar axtarırlar.

# Narın faydası

Tövratda və Quranda adı çəkilən nar insan üçün ən xeyirli bitkilərdən biridir. Nar vitamin və mikroelementlərlə olduqca zəngindir. Narda olan antioksidantlar orqanizmdə yaranan müxtəlif zərərli maddələrlə mübarizə aparmağa kömək edir, orqanizmi cavanlaşdırır. Tədqiqatçılar narın xərçəngin profilaktikasında böyük rolu olduğunu sübut edirlər. Nar insanın ürək-damar, mədə-bağırsaq, immun və s. sistemlərinə çox müsbət təsir edir, qanda hemoqlobinin səviyyəsini artırır. Nar qurdqovucu təsirə malikdir. Nar qan təzyiqini və qanda olan qlükozanın səviyyəsini aşağı salır və bu səbəbdən nar hipertonik və diabetiklər üçün çox xeyirlidir. İnfeksion xəstəliklər və cərrahi əməliyyatlardan sonra nar şirəsinin istifadə edilməsi orqanizmi tez bir zamanda bərpa olunmasına kömək edir. Nar şirəsi insanın iştahasını artırır və immun sistemi möhkəmləndirir.





# Yoxsul olduğu üçün intihar etdi

"İndepedent" nəşrinin xəbərinə görə, İngiltərədə yaşayan Aşleig Boves adlı gənc yoxsul olduğu üçün intihar edib. 14 yaşlı gənc yoxsul olduğu üçün məktəb yoldaşları tərəfindən təhqir edilirmiş. Davamlı gülüş hədəfinə çevrilən oğlan bir müddət əvvəl depressiyaya düşüb, yeməkdən kəsilib və sonda da intihar edib. Yoxsul olduğu üçün davamlı təhqir edilən 14 yaşlı Aşleig Baves məktub yazaraq intihar edib. Gənc oğlanın intihardan bəhs edən saytlardan öyrəndiyi dərmanlardan biri ilə özünü öldürdüyü məlum olub. O, məktubunda "biz yoxsuluq, sizin kimi böyük markalara sahib ola bilmirik. Burda təhqir ediləcək bir şey yoxdur, sözlər öldürür", deyə son mesajını yazıb. Bovsun ölmədən əvvəl dovşanını özündən uzaqlaşdırdığı, anasını öpdüyü və otağına getdiyi məlum olub.




QOÇ - Sizə dəxli olmayan məsələlərə az müdaxilə edin. Onsuz da son məqamda yardımçı olduğunuz şəxslər özünüzə qarşı yönələcək. Günün ikinci yarısında yaxın qohumlarınıza mütləq baş çəkin.

BUĞA - Kifayət qədər səmərəli gündür. İşbirliyi qurduğunuz adamlarla perspektivli nəticələr əldə edə bilərsiniz. Ulduzlar daha çox maliyyə baxımından uğurlara yiyələnəcəyinizi bildirir. Elə isə tələsin.

ƏKİZLƏR - Fəaliyyətə ara verməyiniz məsləhətdir. Yaxşı olar ki, ürəyinizə yaxın olan simsarlarınızla bir yerdə olasınız. Bu, daxili nisgilinizi azalda bilər. Müqəddəs ziyarətgahlardan birinə getmək də olar.

XƏRÇƏNG - İxtiyarınızda bir qədər mistik gün durur. Tanrıya xoş getməyən əməllərdən çəkinin. Ulduzlar gün ərzində büdcənizin xeyli ağırlaşacağını bəyan edir. Odur ki, bəri başdan buna hazır olun.

ŞİR - İnsanlarla münasibətdə vəziyyət heç də ürəkaçan olmayacaq. Ola bilsin ki, sizə qarşı təxribat da törədilsin. Hər halda tədbirli olmağınız lazımdır. Axşam xoş əhatəli qonaqlığa getməyə dəyər.

QIZ - Bütün enerjinizi məhəbbətə yönəldin. Xırda umu-küsüləri və konfliktləri qaydasına salmağa çalışın. Bunu etməsəniz, Göy qübbəsinin qəzəbinə gəlib xəstələnə bilərsiniz. Böyük məsləhətinə dəyər verin.

TƏRƏZİ - Ayın ən əhəmiyyətli günlərindən birini yaşayacaqsınız. Bu baxımdan fəaliyyət zəminində uğurlarınız daha çox olacaq. Sövdələşmələrdə qarşı tərəfin ədalətli mövqeyini mütləq nəzərə alın.

ƏQRƏB - Fərdi fəaliyyət prinsipində müsbət dönüş yaratmaq istəyirsinizsə, bu təqvimdən maksimum istifadə edin. Əks təqdirdə yaxın günlərdə bu şansı itirəcəksiniz. Hamıya mehriban olun.

OXATAN - Yersiz lovğalıq, mənəm-mənəmlik, inamsızlıq sizə başucalığı gətirən deyil. Bu amili nəzərə alıb ünsiyyətdə olduğunuz adamlara qarşı mərhəmətli davranın. Yeni əlaqələrdən çəkinməyin.

OĞLAQ - Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl - ulu Zərdüştün bu tövsiyələri nə qədər ki qəlbinizə hopmayıb, taledən mərhəmət gözləməyin. İndi seçim sizindir, başlamağa dəyər. Ürəyinizə sevgi qatın.

SUTÖKƏN - Səfər və qonaqlıq üçün ideal gündür. Əgər maddi durumunuz buna imkan verirsə, yola düşməyə dəyər. Yaxşı bilirsiniz ki, sizin üçün darıxanlar və yolunuzu gözləyənlər çoxdur.

BALIQLAR - Astroloji göstəricilər şəxsi münasibətlərinizi düzəltmək üçün gözəl imkan qazanacağınızı bildirir. Dəvətlərdən qaçmayın. Ola bilsin ki, belə görüşlər arzularınızın əksər qismini həyata keçirsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən iri fili 60 min dollarla öldürdü



Afrikada 21 gün davam edən bir ovda iştirak edən alman ovçu qitənin böyük filini öldürmək üçün 60 min dollar ödəyib. Zimbabvedəki Gonarezhou Milli Parkında saxlanılan qeyri-adi böyüklükdəki fili professional bir ovçunun köməyi ilə öldürən ovçu bu iş üçün 60 min dollar ödəyib. Rəsmi icazəsi olan ovçunun öldürdüyü filin 55 kiloqram ağırlığındakı dişlərini çətinliklə daşıyıblar. Zimbabvenin rəsmi qurumları filin ölüm xəbərini təsdiqləyiblər. Gonarezhou Milli Parkı isə mediaya verdiyi açıqlamada parkda ondan daha böyük bir filin olmadığını deyiblər. Məlumat üçün bildirək ki, Zimbabvedə aclıqla mübarizə aparan ailələr və uşaqlar heyvan ovladıqları zaman 5-15 il müddətinə azadlıqdan məhrum edilirlər. Lakin zəngin adamlar pul ödəyərək istədikləri heyvanı öldürə bilirlər. Öldürdüyü fillə şəkil çəkdirən ovçu isə kəskin reaksiyalarla üzləşib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsìsçì: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "E-Q" mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lìsenzìya N: B 114
SAYI: 4.300